ISSN: 3104-4670
e-ISSN: 2789-6919

# ELM VƏ TƏHSİLİN ƏSASLARI
# XVIII BEYNƏLXALQ ELMİ KONFRANS

ELMİ TƏDQİQAT Beynəlxalq Elmi Jurnalın
xüsusi buraxılışı

# FUNDAMENTALS OF SCIENCE AND EDUCATION
# XVIII INTERNATIONAL SCIENTIFIC CONFERENCE

SCIENTIFIC RESEARCH Special issue of the
International Scientific Journal

Bakı, Azərbaycan
05 fevral 2026

# ELM VƏ TƏHSİLİN ƏSASLARI
# XVIII BEYNƏLXALQ ELMİ KONFRANS
**ELMİ TƏDQİQAT Beynəlxalq Elmi Jurnalın xüsusi buraxılışı**

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

# FUNDAMENTALS OF SCIENCE AND EDUCATION
# XVIII INTERNATIONAL SCIENTIFIC CONFERENCE
**SCIENTIFIC RESEARCH Special issue of the International Scientific Journal**

**05 fevral 2026**

## Beynəlxalq indekslər / International Indices

ISSN: 3104-4670
e-ISSN: 2789-6919
DOI: 10.36719

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© bek.tedqiqat@aem.az
© aem.az

## TƏŞKİLAT KOMİTƏSİ

### Sədr

**Prof. Dr. Leyla VƏZİROVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

### Sədr müavinləri

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
**Prof. Dr. Mehmet KARATAŞ**, Necmettin Erbakan Universiteti / Türkiyə

### Məsul katib

**Assos. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

### ÜZVLƏR

**Prof. Dr. Vaqif ABBASOV**, ARETN Akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Əziz SANCAR**, Çapel-Hill Şimali Karolina Universiteti / ABŞ
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya Tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Səyyarə İBADULLAYEVA**, ARETN Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Leyla İMAMƏLİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Prof. Dr. Təranə HACIYEVA**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Dünya BABANLI**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Əkbər AĞAYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbacan

**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "İpək Yolu" Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Yaqub BABAYEV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Yasin BABAYEV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Turhan ÇETİN**, Qazi Universiteti / Türkiyə
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Andrei VOLODIN**, Regina Universiteti / Kanada
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Anar KAZIMOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zahid MƏMMƏDOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. İntiqam CƏBRAYILOV,** Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Könül HƏSƏNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Urfan HƏSƏNOV,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Əliş AĞAMİRZƏYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elnarə MEHBALIYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA,** Qarabağ Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti Azərbaycan
**Assoc. Prof. Dr. Sadıq QARAYEV,** ETN, Botanika İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**PhD Tomas SMEDLEY,** Cenevrə Kolleci, Pensilvaniya / ABŞ

## THE ORGANIZING COMMITTEE

**Chairman**

**Prof. Dr. Leyla VAZIROVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan

**Deputy chairmen**

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
**Prof. Dr. Mehmet KARATASH**, Nejmettin Erbakan University / Turkey

**Executive secretary**

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan

**MEMBERS**

**Prof. Dr. Vagif ABBASOV,** Institute of Petrochemical Processes named after Academician Y.H.Mammadaliyev of MSERA / Azerbaijan
**Prof. Dr. Aziz SANJAR,** University of North Karolina at Chapel Hill / USA
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Garib MURSHUDOV,** Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Sayyara IBADULLAYEVA**, Institute of Botany of MSERA / Azerbaijan
**Prof. Dr. Nikolay BRIKO,** First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Arzu SARDARLI,** First Nations University of Canada / Canada
**Prof. Dr. Nadir ILHAN,** Ahi Evran University / Turkey
**Prof. Dr. Jihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Jeyran MAHMUDOVA,** Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Leyla IMAMALIYEVA**, Baku Slavic University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA,** Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan
**Prof. Dr. Tarana HAJIYEVA,** Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Haji HASANOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS/ Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Dunya BABANLI**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Maharram MAMMADLI,** Baku State University / Azerbaijan
**Prof. Dr. Akbar AGHAYEV**, Sumgayit Statet University / Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan

**Prof. Dr. Juliboy ELTAZAROV**, "Silk Road" International University of Tourism and Cultural heritage / Uzbekistan
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Yagub BABAYEV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Faxraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Yasin BABAYEV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Turhan CHETIN**, Gazi University / Turkey
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Andrei VOLODIN**, Regina University / Canada
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Anar KAZIMOV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Yagut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Irada HUSEYNOVA,** Baku State University / Azerbaijan
**Prof. Dr. Zahid MAMMADOV,** Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Konul HASANOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj RUINTAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Urfan HASANOV,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Alish AGAMIRZEYEV,** Baku State University / Azerbaijan

**Assoc. Prof. Dr. Elnara MEHBALIYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Leyla ALIYEVA,** Karabakh University / Azerbaijan
**Assoc. Prof. Dr. Zabita TEYMURLU,** Baku Engineering University / Azerbaijan
**Assoc. Prof. Dr. Sadiq GARAYEV**, Institute of Botany of MSERA/ Azerbaijan
**Assoc. Prof. Dr. Irada KARIMOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**PhD Thomas SMEDLEY,** Geneva College in Beaver Falls, Pennsylvania / USA

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
# HUMANITIES AND SOCIAL SCIENCES

**Sevinc Sadıqova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-8720-3262
sevincsadigova@gmail.com

## Azərbaycan dilinin yazı sistemində istifadə olunan əlifbalar

***Açar sözlər:*** *əlifba, yazı, qrafika, Azərbaycan dili*
***Keywords:*** *alphabet, writing, graphics, Azerbaijani language*

Hər bir xalqın yazı mədəniyyəti, əlifbası həmin xalqın milli varlığının tərkib hissəsidir. *Əlifba* dildəki danışıq səslərinin yazıdakı qrafik işarələrinin cəmi və müəyyən ardıcıllıqla düzülüşüdür. A.Qurbanov yazırdı: "Məlumdur ki, insanlar öz nitqlərini fonetik cəhətdən təhlil etməyə alışdıqları zaman səsləri işarələrlə, yəni hərflərlə əks etdirməyə başlamışlar. Sözlərdəki səslər hərflərlə göstəriləndən sonra əlifba meydana çıxmışdır."

Ən qədim əlifbalar qədim yazı mədəniyyətinə malik olan xalqlarda – misirlilərdə, minoylarda, finikiyalılarda, aramilərdə, daha sonrakı dövrlərdə isə ərəblərdə, yunanlarda, etrusklarda, latınlarda, slavyanlarda istifadə edilmişdir. Müasir dövrdə təqribən 250 əlifbadan istifadə olunması tədqiqatçılar tərəfindən qeyd edilir.

Tarixən Azərbaycan dilinin yazı sistemində müxtəlif əlifbalardan istifadə olunmuşdur:

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

1.Ən qədim dövrlərdən VII əsrin sonlarına qədər istifadə olunan qədim türk əlifbaları. Tarixin ən qədim dövrlərindən türk xalqları müxtəlif əlifbalardan – runi (Orxon-Yenisey), uyğur, mani, soğdi və s.-dən istifadə etmişlər. Bu əlifbalar türk xalqlarının, təbiidir ki, həm də Azərbaycan xalqının əcdadlarının yaratdığı ilk milli əlifbalardır. Bunlardan başqa, Azərbaycan ərazisində fərqli bir əlifbadan da istifadə olunmuşdur.

Azərbaycan ərazisindəki yazılı abidələri araşdıran tədqiqatçılar qeyd edirlər ki, ölkəmizdə aşkar edilmiş abidələrdəki yazı işarələri yuxarıda sadaladığımız əlifbalardan fərqlidir, deməli, Azərbaycan xalqının öz düşüncəsinin, fəlsəfi dünyagörüşünün məhsuludur. M.İsmayılova qeyd edir ki, "Gəmiqaya və Qobustan abidələrindəki əlifba işarələrinin Azərbaycanın digər ərazilərində də aşkarlanması faktı sübut edir ki, bu qədim Azərbaycan əlifbası e.ə. minilliklərdən eramızın I minilliyinin 8-9-cu əsrlərinə qədər, xüsusən ərəb işğalına qədər Azərbaycanda, Yaxın və Orta Şərqdə, nəhayət, Avropada yayılmış, işlənmiş, öyrənilmişdir. Bu əlifbalarla çoxlu dastanlar, tanrıçılıq inamı ilə bağlı boylar, hekayələr, bayatılar, atalar sözləri, müdrik kəlamlar qeydə alınmışdır."

2.VII əsrin sonlarından 1929-cu ilə qədər istifadə olunan ərəb qrafikalı Azərbaycan əlifbası. Təqribən on iki əsr ərzində istifadə olunan bu əlifba Azərbaycan dilinin səs sistemini tam əks etdirə bilmədiyi üçün bir sıra çətinliklər yaranırdı. Hələ XVI əsrdə M.Füzuli bu əlifbanın istifadədə çətinlik, dolaşıqlıq yaratmasından, bu əlifbadan dəqiqliklə istifadə etməyən, qüsurlu yazan katiblərdən şikayətlənirdi:

Qələm olsun əli ol katibi-bəd təhririn
Ki, fəsadi-qələmi sözümüzü şur eylər.
Gah bir hərf süqutilə qılur nadiri nar,
Gah bir nöqtə qüsurilə gözü kur eylər.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

Şair bu parçada bir hərf (nadir – nar) və bir nöqtə (göz – kur) xətası ilə sözlərin fərqləndirilməsinın çətinliyindən bəhs etmişdir.

Daha sonra XIX əsrdə M.F.Axundov əlifba islahatı aparmağa cəhd etmiş, bir neçə əlifba layihəsi hazırlamışdı: ilk layihəsində ərəb qrafikalı əlifbadakı bütün nöqtələrin atılmasını təklif etmiş, bir-birindən yalnız nöqtələrlə fərqlənən hərflər üçün yeni şəkillər və dilimizdəki bütün saitləri yazıda əks etdirmək üçün yeni hərflər yaratmışdı; ikinci layihəsində yuxarıda qeyd edilən dəyişikliklərdən əlavə, həm də hərflərin ayrıca yazılmasını təklif etmişdi, çünki ərəb qrafikalı əlifbada hər bir hərfin ayrıca yazılan şəkli, həmçinin, sözün əvvəlində, ortasında və sonunda yazılan şəkilləri mövcud idi ki, bu da yazı işini xeyli çətinləşdirirdi; üçüncü layihəsində ərəb qrafikalı əlifbadan tamamilə imtina edərək latın qrafikalı Azərbaycan əlifbasını hazırlamışdı; dördüncü layihəsində isə latın qrafikalı əlifbanı yenidən işləyib təkmilləşdirmişdi. Bu layihələrin heç biri həyata keçməsə də, M.F.Axundovun yeni əlifba uğrunda mübarizəsi böyük tarixi hadisə idi, o bu mübarizəsini böyük ictimai hərəkata çevirmiş, bu işi xalqın maariflənməsi, mədəni yüksəlişi üçün əsas hesab etmişdi.

Ərəb qrafikalı Azərbaycan əlifbasında bir hərfin bir neçə səsi ifadə etməsi, qrafemlərin paleoqrafik və orfoqrafik xüsusiyyətləri və s. səbəblər bu əlifbadan imtina edilməsini labüd edirdi.

3.1929-1939-cu illərdə latın qrafikalı Azərbaycan əlifbası. XIX əsrdən etibarən ərəb qrafikalı Azərbaycan əlifbasını dəyişərək daha mütərəqqi əlifbadan istifadəyə keçmək üçün müəyyən işlər görülürdü.

XX əsrin 20-ci illərində əlifbanın dəyişdirilməsi məsələsi mütəmadi olaraq müzakirə edilirdi: 30 dekabr 1921-ci ildə Azərbaycan Xalq Komissarları Sovetində keçirilən müşavirədə

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

Yeni Əlifba Komitəsi təşkil edilir, bir il sonra, 30 dekabr 1922-ci ildə latın qrafikalı Azərbaycan əlifbasının layihəsi elan edilir, həmin gündən layihənin mətbuatda təbliğ edilməsi prosesinə başlanılır. 1924-cü ildən ərəb əlifbası ilə yanaşı yeni əlifba da rəsmi şəkildə işlədilməyə başlanır. 1926-cı ildə keçirilən I Türkoloji Qurultayda latın qrafikalı Azərbaycan əlifbasının qəbul edilməsi məqsədəuyğun hesab edilir. 1 yanvar 1929-cu il tarixindən ərəb qrafikalı Azərbaycan əlifbasından tamamilə imtina olunur, yalnız yeni latın qrafikalı Azərbaycan əlifbasından istifadə olunur.

4.1940-1992-ci illərdə kiril qrafikalı Azərbaycan əlifbası. Azərbaycan SSR Ali Sovetinin qərarı ilə 1940-cı il yanvarın 1-dən kiril qrafikalı Azərbaycan əlifbasına keçilir. N.Xudiyev qeyd edir ki: "...ərəb əlifbasından latın əlifbasına keçid geniş müzakirə edildiyi halda, rus əlifbasına keçid bir-iki ildə baş verir, prinsip etibarilə mübahisəyə səbəb olmur." Əlbəttə, buna səbəb imperialist rejimin təzyiqi idi.

5.1992-ci ildən latın qrafikalı Azərbaycan əlifbası. Hal-hazırda istifadə etdiyimiz latın qrafikalı Azərbaycan əlifbası ən mütərəqqi, istifadəsi rahat, Azəraycan dilinin səs sistemini maksimal dərəcədə dəqiq əks etdirən əlifbadır.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

**İsmayıl Mürsəlov**
Naxçıvan Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0003-1879-8583
ismaylmurselov355@gmail.com

# Muğam-xanəndəlik sənətinin inkişaf mərhələsi

***Açar sözlər:*** *Azərbaycan, muğam, musiqi, xanəndə, xanəndəlik sənəti*
***Keywords:*** *Azerbaijan, mugham, music, singer, art of singing*

Muğam – Azərbaycan xalqının musiqi irsinin zəngin sərvətidir. Müasir dövrdə Azərbaycanda muğam sənəti yüksək səviyyədə inkişaf etdirilir. Görkəmli muğam ifaçılarının yaradıcılıq irsi qorunur və dünya miqyasında təbliğ olunur. Azərbaycan xanəndələrinin ifaçılıq sahəsindəki nailiyyətlərini musiqi mədəniyyətinin əlamətdar hadisələri kimi qeyd etməliyik. Muğam ifaçılığı və muğam yaradıcılığının vəhdətdə tədqiq olunması vacibdir. Digər tərəfdən, musiqi sənətində yeni yollar açmış ustad sənətkarların yaradıcılıq fəaliyyətinin öyrənilməsi zəruridir və onların tarixi rolunun qiymətləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan müasir dövrdə xanəndəlik sənətinin müxtəlif cəhətlərdən ifaçılıq, yaradıcılıq, pedaqoji sahələrdə tədqiqi, onların Azərbaycan şifahi ənənəli professional musiqi mədəniyyətinin inkişafındakı rolunun öyrənilməsi müasir musiqişünaslıqda aktual məsələlərdəndir. Xanəndəlik sənətinin inkişafında dövrləşmə - cəmiyyətin mədəni-ictimai həyatı ilə bağlı olaraq aparıla bilər. Azərbaycan xanəndəlik sənətinin inkişafında hər bir tarixi-siyasi dövr özünəməxsus cəhətlərlə əlamətdar olmuşdur: həmin dövrdə

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

xanəndəlik sənətinin yaranması ilə bağlı tarixi və elmi mənbələrdən məlumat alırıq. Son onilliklərdə aparılmış bir sıra tədqiqatlarda arxeoloji qazıntılar nəticəsində üzə çıxarılmış mənbələrdə xanəndəlik sənətinin qədim köklərə malik olduğundan xəbər verilir. Bu dövrdə şifahi ənənəli musiqidə xalq musiqisi, aşıq və muğam sənəti kimi təbəqələşmə əmələ gəlmiş, aşıq yaradıcılığı və muğam ifaçılığı xanəndə sənəti şifahi ənənəli musiqinin peşəkar sahələri kimi, ustad ənənələri əsasında formalaşmışdır. Musiqişünas-alim R.Zöhrabov "Muğam" kitabında şifahi ənənəli Azərbaycan musiqisinin üç təbəqədən ibarət olduğunu göstərmişdir: "xalq (mahnı və rəqs musiqisi janrları), xalq-professional (aşıq musiqi yaradıcılığı) və sırf şifahi-professional musiqi janrları (muğam dəstgahları, kiçik formalı muğamlar, zərbi-muğamlar, rənglər və təsniflər)." Bu təbəqələri səciyyələndirən alim yazır ki, "...xalq musiqi növləri və şifahi ənənəyə əsaslanan professional musiqi janrları bütün dövrlərdə bir-birilə çox sıx əlaqədədir. Öz kökləri ilə gedib qədim dövrlərə çatan xalq musiqi yaradıcılığı şifahi ənənəyə əsaslanan professional musiqi sənətinin yaranması və getdikcə inkişafı üçün faydalı zəmin olmuşdur." Bu baxımdan yanaşsaq, qeyd etməliyik ki, yuxarıda göstərilən hər bir yaradıcılıq təbəqəsinin özünəməxsus ifaçılıq ənənələri, musiqi irsi, tətbiqi sahələri əsrlər boyu formalaşmış, bir-birinə qarşılıqlı surətdə təsir edərək təkmilləşmiş və bizim günlərə çatmışdır. Buna görə də ifaçılıq sahələrinin köklərini qədim dövrlərdə aramaq lazımdır. Belə ki, xalq arasından çıxmış, xalq musiqisi üzərində yetişmiş, istedadlı insanlar musiqini özünə peşə seçərək aşıq, xanəndə və ya instrumental ifaçı kimi fəaliyyət göstərmişlər. Onların formalaşdırdıqları ifaçılıq üslubları və ənənələri yaddaş vasitəsilə gələcək nəsillərə ötürülərək təkmilləşmişdir. Elmi ədəbiyyatda müxtəlif dövrlərdə xanəndəlik müğənnilik sənətinin formalaşması, onların yaradıcılıq məhsulu olan

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

muğamların, təsniflərin meydana gəlməsi və inkişafı ilə bağlı məlumata rast gəlinir. Muğamın bir janr kimi formalaşması prosesi X-XII əsrlərə aid edilsə də, ifaçılıq yaradıcılıq kökləri həmin dövrə qədər tədriclə yetişmişdir və bu prosesdə dinin də təsiri az olmamışdır. Qədim dövrlərdən cəmiyyətin musiqi həyatında xalq mahnı və rəqsləri, aşıq yaradıcılığı, dini musiqi və saray musiqisindən ibarət təbəqələrdə öz əksini tapmışdır. Tarixi inkişaf mərhələlərində bunlar müəyyən təkamülə məruz qalmış, bir-birinə qarşılıqlı təsir göstərərək, şifahi ənənəli musiqi mədəniyyətinin özünəməxsus xüsusiyyətlərə malik sahələri kimi inkişaf edib, bizim günlərə çatmışlar və bu proses bu gün də davam etdirilir. Xanəndəlik sənətinin təşəkkülünün II dövrü orta əsrlərə aid olub, X əsrdən başlayaraq, klassik poeziyanın və muğam sənətinin inkişafı ilə səciyyələnir. Elmi ədəbiyyatda “Şərq intibahı” adlandırılan orta əsrlər dövrü bəşər tarixinə bir sıra mütəfəkkir şair və filosofları bəxş etmişdir. Şərq aləmində orta əsrlər dövründə muğam ifaçılığı sənəti böyük şəhərlərdə saray mədəniyyəti kimi çiçəklənmə dövrünü yaşayıb. Muğamın bir janr kimi formalaşması, muğam ənənələrinin, terminologiyanın yaranması, muğam tərkiblərinin sistemləşməsi bu dövrə aiddir. Xanəndəlik – saray musiqiçisi kimi xarakterizə olunaraq, musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamağa başlamış, muğam ifaçılığı sənəti şifahi ənənəli professional musiqinin yüksək inkişaf etmiş təbəqəsini təşkil etmişdir.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

**Elnurə Səfərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-4151-1750
seferovaelnure@mail.ru
**Sabiyə Cəbrayılzadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-0374-4828
sabina.jbz@bk.ru

# STEAM təhsili ilə XXI əsr əmək bazarına hazırlıq və bioloji rəqəmsal savadlılıq

***Açar sözlər:*** *bioloji, XXI əsr, təhsil, rəqəmsal savdlılıq, əmək bazarı*

***Keywords:*** *biological, 21st Century, education, digital literacy, labor market*

STEAM metodologiyası və bioloji rəqəmsal savadlılıq müasir təhsil sistemində xüsusi əhəmiyyət kəsb edən istiqamətlərdən biridir. Rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi XXI əsrdə, şagirdlərin bu texnologiyalardan səmərəli istifadə bacarıqlarının formalaşdırılması onların gələcək peşəkar həyatında uğur qazanmasına mühüm töhfə verir. STEAM yanaşması – elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın inteqrasiyasına əsaslanan tədris modeli şagirdlərə yalnız nəzəri biliklər deyil, həm də praktik bacarıqlar qazandıraraq onları müasir əmək bazarının tələblərinə uyğun hazırlayır. Bu metodologiya, rəqəmsal savadlılığın inkişafını dəstəkləyərək, şagirdlərin informasiya-kommunikasiya texnologiyalarına daha yaxşı inteqrasiya olunmasına imkan yaradır. Məsələn, proqramlaşdırma dərslərində şagirdlər müxtəlif kodlaşdırma dillərindən istifadə edərək öz layihələrini hazır-

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

layır, 3D modelləşdirmə ilə işləyir və robotları proqramlaşdırırlar. Bu biliklər onların gələcəkdə texnologiyadan effektiv şəkildə istifadə etməsinə şərait yaradır.

STEAM təhsili, şagirdləri müasir əmək bazarında tələb olunan əsas bacarıqlarla təmin edir. XXI əsr əmək bazarında texnologiya, problem həll etmə və kommunikasiya bacarıqları xüsusi əhəmiyyət daşıyır. STEAM yanaşması, şagirdlərin bu bacarıqları əldə etməsinə və onların gələcək peşəkar həyatlarında uğurlu olmasına kömək edir. Məsələn, STEAM dərslərində kodlaşdırma öyrənən şagirdlər gələcəkdə proqramlaşdırma sahəsində karyera qura bilərlər. Bu yanaşma, həmçinin, sahibkarlıq və innovasiya bacarıqlarını təşviq edir, şagirdlərə yeni ideyalar yaratmaq və onları həyata keçirmək üçün lazımi bilikləri qazandırır. Bioloji rəqəmsal savadlılıq isə bu prosesdə xüsusi rol oynayır. Şagirdlər bioloji məlumatların rəqəmsal emalı, genetik məlumatların analiz edilməsi və biotexnoloji tətbiqlərin öyrənilməsi vasitəsilə həm elmi, həm də texnoloji bacarıqlarını inkişaf etdirirlər. Bu biliklər onların gələcəkdə biotexnologiya, tibb və ətraf mühit elmləri kimi sahələrdə uğur qazanmasına şərait yaradır. STEAM metodologiyası ilə təhsil alan məzunlar istənilən sahədə liderlik göstərə bilir və problemlərə çevik həllər tapmaqda fərqlənirlər. Bu təhsil modeli onların yeni texnologiyalara açıq olmasına, dəyişən mühitə uyğunlaşmasına və yaradıcı düşünməyə meyilli olmasına kömək edir. Mühəndislik və texnologiya sahələrində çalışan şəxslər innovativ həllər yaratmaq və yeni məhsullar inkişaf etdirmək üçün STEAM əsaslı biliklərdən istifadə edirlər. Bioloji rəqəmsal savadlılıq isə bu prosesdə mühüm rol oynayır. Məsələn, bioinformatika sahəsində çalışan mütəxəssislər genetik məlumatların analizini aparmaq üçün proqramlaşdırma və riyazi modellərdən istifadə edirlər. Bu, onların həm elmi, həm də texnoloji biliklərini birləşdirərək yeni kəşflərə imza atmasına

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

imkan yaradır. STEAM yanaşması şagirdlərə öz biliklərini real dünyada tətbiq etmək və fərqli sahələrdə uğur qazanmaq üçün lazım olan əsas bacarıqları qazandırır.

STEAM təhsili ənənəvi təhsil yanaşmalarından fərqli olaraq, şagirdlərə həm nəzəri, həm də praktik biliklər qazandıraraq onların XXI əsrin tələblərinə uyğun bacarıqlara yiyələnməsinə şərait yaradır. Bu yanaşma yalnız elmi və texniki biliklərin aşılanması ilə kifayətlənməyib, eyni zamanda yaradıcı düşüncə, problem həll etmə və komanda işi kimi vacib bacarıqların inkişafını dəstəkləyir. STEAM yanaşması ilə yetişdirilən kadrlar əmək bazarında daha çevik və innovativ düşüncəli fərdlər kimi formalaşır. Bioloji rəqəmsal savadlılıq isə onların elmi biliklərini praktiki tətbiqlərlə birləşdirərək daha geniş imkanlar açır. Bu səbəbdən STEAM təhsilinin daha geniş tətbiqi ölkələrin təhsil sistemlərinin inkişafına və rəqabət qabiliyyətinin artırılmasına töhfə verəcəkdir.

STEAM yanaşmasının qarşılaşdığı problemlər və onların həll yolları da diqqət mərkəzindədir. STEAM təhsil modeli müasir təhsil sistemlərində innovativ və multidissiplinar yanaşma kimi qəbul edilsə də, onun geniş yayılmasını və effektiv tətbiqini məhdudlaşdıran bir sıra problemlər mövcuddur. Bu metodologiyanın tam inteqrasiyası həm infrastruktur, həm də pedaqoji baxımdan ciddi islahatlar tələb edir. Təhsil sistemində maddi-texniki bazanın gücləndirilməsi, müəllimlərin hazırlanması və ənənəvi tədris metodları ilə uzlaşdırılması kimi məsələlər həll olunmalıdır. Bioloji rəqəmsal savadlılığın inkişafı üçün isə laboratoriyaların müasir texnologiyalarla təchiz edilməsi, şagirdlərin praktiki təcrübə qazanması və müəllimlərin bu sahədə ixtisaslaşması vacibdir. Bu islahatlar həyata keçirildiyi təqdirdə STEAM metodologiyası və bioloji rəqəmsal savadlılıq təhsil sistemində daha geniş tətbiq olunacaq və şagirdlərin gələcək uğurlarına möhkəm zəmin yaradacaqdır.

**https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026**

**İsmət Həsənov**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0008-3576-0583
ismethesenli1965@gmail.com

# Zəngəzur Dəhlizi: Naxçıvanın blokadadan çıxışı və regional inkişaf perspektivləri

***Açar sözlər:*** *Zəngəzur, iqtisadi zona, siyasi maraqlar, strateji əhəmiyyət*
***Keywords:*** *Zangezur, economic zone, political interests, strategic importance*

Zəngəzur Dəhlizinin geosiyasi, iqtisadi və nəqliyyat baxımından əhəmiyyəti araşdırılır. Xüsusilə Naxçıvan Muxtar Respublikasının uzun illər davam edən nəqliyyat blokadasından çıxması kontekstində dəhlizin strateji rolu təhlil edilir. Zəngəzur Dəhlizinin açılması Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında birbaşa quru əlaqəsinin bərpasına, regiondaxili və beynəlxalq ticarət əlaqələrinin genişlənməsinə, logistika və tranzit imkanlarının artmasına şərait yaradır. Tezisdə dəhlizin Cənubi Qafqazda regional inteqrasiya, iqtisadi əməkdaşlıq və dayanıqlı inkişaf perspektivlərinə təsiri də qiymətləndirilir. Nəticə olaraq qeyd olunur ki, Zəngəzur Dəhlizi təkcə nəqliyyat layihəsi deyil, eyni zamanda, Naxçıvanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi, regionda sabitlik və əməkdaşlığın möhkəmləndirilməsi baxımından mühüm strateji təşəbbüsdür.

Zəngəzur dəhlizi, Naxçıvana iqtisadi, sosial və strateji baxımdan böyük təsir göstərə bilər. Bu dəhliz Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birbaşa əlaqələndi-rəcək və Naxçıvanın blokadadan çıxması üçün əsas imkanlardan biri hesab olunur.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

Hal-hazırda Naxçıvanın Azərbaycanla birbaşa quru əlaqəsi yoxdur və bölgə əsasən İran üzərindən Azərbaycanla əlaqə saxlayır. Zəngəzur dəhlizinin dərk edilməsi Cənubi Qafqazın inkişaf edən dinamikasını və onun daha geniş miqyasda rolunu dərk etmək üçün vacibdir. Zəngəzur dəhlizi fiziki keçiddən daha çox şeydir; Cənubi Qafqazın geosiyasətində yeni səhifəni təmsil edir. Dəhliz təkcə region daxilində deyil, həm də bu ərazidə xüsusi maraqları olan böyük qlobal güclərlə münasibətləri yenidən müəyyən etmək potensialına malikdir. Onun inkişafı beynəlxalq maraqlı tərəflər, o cümlədən Rusiya, Avropa İttifaqı və ABŞ tərəfindən diqqətlə izlənir və onların hər biri bu strateji əhəmiyyətli regionda dəyişən dinamikadan müxtəlif şəkildə təsirlənir. Zəngəzur dəhlizi Cənubi Qafqazı Avropa və Asiya ilə birləşdirən daha geniş regional nəqliyyat şəbəkələrinin bir hissəsi kimi görünür. Türkiyə Naxçıvanın Vəlidağ hissəsinə qədər olan 158 kilometrlik xətti yeniləyir. Buradan sonra xətt Ermənistan sərhədinə qədər uzanır. Türkiyə şirkətləri həm magistral, həm də dəmir yolu tikintisini həyata keçirirlər. Dilucu, İğdır və Qarsa uzanan 224 kilometrlik xəttin tenderi də keçirilib.

Naxçıvan MR-da azad iqtisadi zonanın yaradılması Prezident İlham Əliyevin təsdiqlədiyi "Naxçıvan MR-nın sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nda öz əksini tapmışdır. Zəngəzur dəhlizinin açılması Naxçıvan Muxtar Respublikası üçün iqtisadi baxımdan əhəmiyyətli bir mərhələ olacaq və burada yeni *azad iqtisadi zonaların* yaradılmasına ciddi təkan verə bilər. Bu dəhliz vasitəsilə Naxçıvan Azərbaycanın əsas hissəsi ilə birbaşa əlaqə quracaq və regionda ticarət, logistika və sənaye inkişafı üçün geniş imkanlar yaranacaq. Azad iqtisadi zonaların yaradılması Naxçıvanın iqtisadiyyatına çoxsaylı faydalar gətirə bilər.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

Naxçıvanın coğrafi mövqeyi onu potensial *tranzit və logistika mərkəzi* kimi möhkəmləndirə bilər. Zəngəzur dəhlizi açıldıqdan sonra Naxçıvan, Azərbaycan və Türkiyə arasında birbaşa nəqliyyat yolu üzərində yerləşəcək və bu, regionda yeni *azad ticarət zonalarının* yaradılmasına şərait yarada bilər. Naxçıvan strateji bir ticarət və tranzit qovşağı kimi çıxış edərək malların idxalı, ixracı və tranziti üçün əlverişli şərait yarada bilər. Gömrük və vergi rüsumlarının azaldılması, beynəlxalq ticarət üçün əlverişli şərait yaradacaqdır. Azad iqtisadi zonalarda anbar və distribusiya infrastrukturu qurulacaq ki, bu da Naxçıvanı beynəlxalq ticarət və tranzit yolları üçün əhəmiyyətli bir məntəqəyə çevirə bilər.

Azad iqtisadi zonalarda sənaye və emal sektorlarının inkişafı gözlənilir. Naxçıvanda bu cür zonalar yaradılarsa, yerli xammaldan istifadə etməklə istehsal və emal müəssisələri açılacaqdır. Xüsusi vergi güzəştləri və azaldılmış tənzimləmə qaydaları ilə xarici investorlar Naxçıvana cəlb edilə bilər. Əsas sənaye sahələri kimi *qida sənayesi, tikinti materialları istehsalı, kənd təsərrüfatı məhsullarının emalı* kimi sahələr inkişaf edə bilər.

Naxçıvan zəngin mədəni irsə və təbii gözəlliklərə malik olduğundan, turizmin inkişafı üçün böyük potensiala sahibdir. Azad iqtisadi zonalar vasitəsilə turizm sektoruna xüsusi güzəştlər tətbiq edilə bilər. Naxçıvanda otellər, turizm obyektləri və əyləncə mərkəzlərinin inkişafı üçün azad iqtisadi zonalar yaradılaraq xarici sərmayələr cəlb edilə bilər. Bu, həm daxili, həm də xarici turistlər üçün yeni imkanlar açacaqdır.

Naxçıvanda mövcud olan termal bulaqlar və təbii şəfa mənbələri sayəsində sağlamlıq turizmi sahəsində də investisiyalar cəlb edilə bilər. Bu zonalar xüsusi vergi güzəştləri və tənzimləmə sadələşdirmələri ilə inkişaf etdirilə bilər. Zəngəzur dəhlizinin açılması Naxçıvan üçün strateji bir fürsət

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

yaradır və burada azad iqtisadi zonaların yaradılması bu regionu beynəlxalq ticarət, sənaye və innovasiya mərkəzinə çevirə bilər. Bu zonalar iqtisadiyyatın şaxələndirilməsinə, iş yerlərinin artmasına və investisiya mühitinin yaxşılaşmasına kömək edəcəkdir. Belə inkişaf Naxçıvanın iqtisadi potensialını tam olaraq açacaq və onu Cənubi Qafqazda və hətta daha geniş regionda əhəmiyyətli bir iqtisadi oyunçuya çevirəcəkdir.

Zəngəzur dəhlizinin açılması Azərbaycan üçün strateji əhəmiyyətə malik olan Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafında yeni mərhələnin başlanğıcıdır. Bu dəhliz Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa quru nəqliyyat əlaqəsi quracaq və iqtisadi əlaqələrin genişlənməsinə şərait yaradacaqdır. Zəngəzur dəhlizinin açılması ilə yanaşı, Naxçıvanda azad iqtisadi zonaların yaradılması da gündəmdədir. Bu azad iqtisadi zonalar kənd təsərrüfatına və bu sektorun inkişafına müsbət təsir edəcək və Naxçıvanın aqrar potensialını gücləndirəcəkdir.

Naxçıvan Muxtar Respublikası zəngin təbii şəraiti və müxtəlif iqlim zonaları ilə seçilir. Bu regionda kənd təsərrüfatı əsas iqtisadi sahələrdən biri hesab olunur. Naxçıvanda istehsal olunan kənd təsərrüfatı məhsulları, o cümlədən meyvə-tərəvəz, taxıl və heyvandarlıq məhsulları, daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac üçün də böyük potensiala malikdir. Lakin coğrafi izolyasiya və birbaşa quru nəqliyyat əlaqəsinin olmaması Naxçıvanın kənd təsərrüfatı məhsullarının geniş miqyasda ixracını çətinləşdirir. Zəngəzur dəhlizinin açılması ilə bu maneələrin aradan qaldırılması gözlənilir.

Azad iqtisadi zonalar vasitəsilə Naxçıvanda istehsal olunan kənd təsərrüfatı məhsullarının ixracı üçün yeni imkanlar yaranacaq. Gömrük və vergi güzəştləri, həmçinin, logistika və nəqliyyat xərclərinin azalması bu zonalarda kənd təsərrüfatı məhsullarının daha rəqabətqabiliyyətli qiymətlərlə beynəlxalq

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

bazarlara çıxarılmasına imkan verəcəkdir. Bu da Naxçıvan fermerlərinə daha çox gəlir əldə etmək və istehsalı genişləndirmək üçün stimul yaradacaqdır. Zəngəzur dəhlizinin açılması və Naxçıvanda yaradılacaq azad iqtisadi zonalar kənd təsərrüfatı sektoruna güclü təkan verəcəkdir. İxrac imkanlarının genişlənməsi, texnologiyaların tətbiqi, məhsul emalının artması və yeni iş yerlərinin yaradılması ilə Naxçıvan kənd təsərrüfatı sahəsində böyük inkişaf potensialına sahib olacaqdır. Azad iqtisadi zonalar vasitəsilə Naxçıvan kənd təsərrüfatı beynəlxalq bazarlarda rəqabətqabiliyyətli mövqeyə çataraq regionun iqtisadi inkişafında mühüm rol oynayacaqdır.

Dəhlizin açılması ilə Naxçıvanda geniş yayılmış kənd təsərrüfatı bitkilərinin ixracı artacaqdır, bunlara misal olaraq üzümçülüyü, tütünçülüyü, dərman bitkilərini və s. göstərmək olar. Üzümçülük Naxçıvan Muxtar Respublikasında tarixən kənd təsərrüfatı sahələrindən biri olmuşdur. Əlverişli torpaq-iqlim şəraiti bu ərazidə 120-dən çox üzüm sortlarının yaranmasına və becərilməsinə imkan yaratmışdır. Həm qidalılıq əhəmiyyətinə, həm də iqtisadi səmərəsinə görə üzüm əkilməsi vacib sayılan kənd təsərrüfatı bitkilərindən biridir.

Üzüm istehsalı üçün regionun əlverişli torpaq-iqlim şəraiti, üzümün digər bitkiçilik məhsullarına nisbətən yüksək iqtisadi səmərəliliyi, keyfiyyətli süfrə (o cümlədən kişmiş) və texniki üzüm sortlarına olan daxili tələbatın yerli istehsal hesabına ödənilməsi, həmçinin, qonşu və digər ölkələrin bazarlarında yüksək keyfiyyətli ekoloji təmiz süfrə üzümünə, şərab və digər üzüm emalı məhsullarına yüksək tələbat üzümçülüyün daha da inkişaf etdirilməsini zəruri edir. Nəticədə, üzüm sahələrinin genişləndirilməsi, istehsalın həcmi və məhsuldarlığın tədricən artımına nail olunmuşdur. Mövcud məlumatlara əsasən, 2021-ci ildə muxtar respublikada 17 min tondan çox üzüm istehsal olunmuşdur.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

Naxçıvan Muxtar Respublikasında tütünçülük kənd təsərrüfatının ənənəvi sahələrindən biridir. Son illərdə bu sahənin inkişafına xüsusi diqqət yetirilmişdir. Məsələn, Kəngərli rayonunda "Cahan Tabak" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yeni Tütün Yetişdirmə Təsərrüfatı yaradılmışdır. Bu təsərrüfatda 5 istixana, tütün qurutma yerləri və anbarlar inşa edilmiş, müasir texnika və avadanlıqlar alınmışdır. İlkin olaraq, 9 hektar sahədə məhsuldar tütün sortları əkilmiş və 11 tondan çox quru tütün istehsal olunmuşdur.

Zəngəzur dəhlizinin açılması və Naxçıvan Muxtar Respublikasında azad iqtisadi zonaların yaradılması regionun iqtisadi və strateji inkişafı üçün böyük potensiala malikdir. Zəngəzur dəhlizinin geosiyasi əhəmiyyəti və iqtisadi potensialı Naxçıvanın blokadadan çıxmasına və regionun daha geniş nəqliyyat, ticarət və logistika şəbəkəsinə inteqrasiyasına imkan yaradacaqdır. Bu, Azərbaycanla, həmçinin, Türkiyə ilə birbaşa əlaqələri möhkəmləndirəcək, ticarət marşrutlarını qısaldacaq və xərcləri azaldacaqdır. Naxçıvanın azad iqtisadi zonalar vasitəsilə iqtisadiyyatını şaxələndirmək və beynəlxalq ticarət və sənaye mərkəzinə çevirmək üçün yeni imkanlar yaranır. Azad iqtisadi zonaların yaradılması Naxçıvanın kənd təsərrüfatı və sənaye sahələrində inkişafını təşviq edəcək, xarici sərmayələrin cəlb edilməsinə şərait yaradacaqdır. Xüsusi vergi güzəştləri və tənzimləmə asanlıqları ilə kənd təsərrüfatı məhsullarının ixracı artacaq, məhsul emalı sahəsində yeni iş yerləri yaranacaq və Naxçıvan kənd təsərrüfatı daha rəqabətqabiliyyətli olacaqdır.

*Kənd təsərrüfatı sektorunun inkişafı* Zəngəzur dəhlizinin açılması ilə daha da möhkəmlənəcəkdir. Əlverişli torpaq və iqlim şəraiti, xüsusən üzümçülük, tütünçülük və digər kənd təsərrüfatı sahələrinin inkişafına şərait yaradacaq. Bu inkişaf, həm daxili bazarda, həm də beynəlxalq bazarlarda daha çox tələbatın yaranmasına səbəb olacaqdır.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

Eyni zamanda, *Naxçıvanın strateji mövqeyi* bu ərazini Cənubi Qafqazın ən vacib tranzit və logistika mərkəzlərindən birinə çevirə bilər. Bu, yalnız iqtisadi deyil, həm də hərbi-strateji baxımdan əhəmiyyətlidir, çünki bu yeni nəqliyyat və ticarət marşrutları regionda daha sıx əlaqələr və əməkdaşlıq yaradacaqdır. Azad iqtisadi zonalar vasitəsilə *turizm və sərmayələr* də cəlb edilə bilər. Naxçıvanın təbii və mədəni irsi, bu zonalar vasitəsilə beynəlxalq turizm bazarına daxil ola bilər, bu isə yerli iqtisadiyyata müsbət təsir edəcəkdir.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

**Qönçə Rəhimova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
doktorant
https://orcid.org/0009-0003-3836-2824
qm.rahimova@adpu.edu.az

# Məktəb təliminə hazırlıq prosesində metodik işlərin təşkili

Məktəb təliminə hazırlıq, məktəbəqədər yaşlı uşağın sosial-psixoloji, idraki və emosional inkişafının kompleks şəkildə inkişafı nəzərdə tutulan əsas bir mərhələdir. Bu mərhələnin uğurlu təşkili təkcə uşağın bilik və bacarıqları ilə deyil, həm də tərbiyəçi-müəllimlərin metodik hazırlığı, tətbiq olunan pedaqoji yanaşmaların düzgün seçilməsi və təlim mühitinin səmərəli qurulması ilə sıx bağlıdır. Bu gün ölkəmizdə  müasir dünyanın şəxsiyyətyönümlü təhsil sferasına daxil olunur, tələbatlara uyğun interaktiv məzmun, ən yeni təlim strategiyaları, qiymətləndirmə mexanizmləri, demokratik idarəetmə sistemi işləyib hazırlamaq üçün ənənəvi və mütərəqqi dünya texnologiyalarından istifadə edilir. Bu baxımdan metodik işlərin planlaşdırılması və sistemli təşkili məktəb təliminə hazırlığın əsas həlqələrindən biri sayılır.

Məktəb təliminə hazırlıq prosesində metodik işlərin təşkili uşağın sensor, idrak və məntiqi inkişaf istiqamətlərinə sistemli şəkildə təsir göstərməyi tələb edir. Bu dövrdə uşaqların hiss orqanları sürətlə təkmilləşdiyindən metodik işlərdə sensor inkişafın gücləndirilməsi xüsusi yer tutur. Məşğələlərdə görmə və eşitmə diferensiasiyası, rənglərin dəqiq seçilməsi, forma və ölçülərin ayırd edilməsi kimi bacarıqların inkişafına yönəlmiş tapşırıqlar uşağın idrak qabiliyyətinin əsasını möhkəmləndirir. Eyni zamanda, musiqi dinləmə, ritm qavrama və fonematik

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

eşitmənin inkişafı məktəb təliminə hazırlığın mühüm komponenti hesab olunur. Bu bacarıqlar sonrakı oxu və yazı prosesləri üçün zəruri baza yaradır.

Məkanda oriyentasiya və əşyaların xüsusiyyətlərini dərk etmə də metodik işlərin vacib istiqamətidir. Müəllim uşaqlara yaxın-uzaq, sağ-sol, yuxarı-aşağı kimi məkansal təsəvvürləri praktik fəaliyyətlər vasitəsilə mənimsədir, əşyaların yerləşməsi və funksional əlaqələrinin aydın şəkildə başa düşülməsinə şərait yaradır.

Hafizənin inkişafı istiqamətində metodik fəaliyyətlərdə əsas diqqət yardımçı və simvolik vasitələrdən istifadə bacarıqlarının formalaşdırılmasına yönəlir. Şəkil, işarə və müxtəlif əvəzedici obyektlərdən istifadə etməklə uşaq yaddaşının idarə olunmasına nail olunur. Bu, hafizə ilə yanaşı, təfəkkürün simvolik funksiyasını da inkişaf etdirir və məktəb yaşında tələb olunan sxemlərlə işləmək bacarığının əsasını qoyur.

Məktəbə hazırlıq prosesində təfəkkürün inkişafı üzrə metodik işlərin düzgün qurulması xüsusi əhəmiyyət kəsb edir. Məktəbəqədər dövrdə üstünlük təşkil edən əyani-əməli təfəkkürün tədricən əyani-obrazlı təfəkkürə keçməsi üçün pedaqoji fəaliyyət ardıcıl və məqsədyönlü şəkildə təşkil olunmalıdır. Bu məqsədlə uşağın fəaliyyətini izah etməyə sövq edən suallar verilərək onun düşünmə prosesində sözlə ifadə etmə bacarığı stimullaşdırılır. Məsələn: "Bunu necə etdin?", "Əvvəl hansı rəngi seçdin?", "Bu qurduğun ev kimlər üçün ola bilər?" kimi suallar uşağın həm təsvir etmə bacarığını, həm də səbəb-nəticə əlaqələrini qurmaq qabiliyyətini inkişaf etdirir.

Bu metodik yanaşmalar nəticəsində uşaqlarda əyani-sxematik təfəkkür formalaşmağa başlayır. Uşaqlar sadə sxemlər, planlar və işarələrin məntiqini anlamağa başlayır, elementlər arasındakı əlaqələri müəyyən edə bilirlər. Bu bacarıqlar

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

gələcəkdə riyazi məsələlərin şərhinin tərtibində, söz və cümlələrin sxemlərini qurmaqda onlara ciddi dəstək olur.

Məktəbəqədər dövrdə metodik işlər uşaqlarda məntiqi-mücərrəd təfəkkürün ilkin əsaslarını da qoyur. 5-6 yaşlı uşaqlar ətraf mühiti sadə şəkildə təhlil edir, mühüm və ikinci dərəcəli əlamətləri ayırd edir, qısa və məntiqli mühakimə yürüdə bilirlər. Bu mühakimələr onların bilik dairəsi ilə məhdudlaşsa da, gələcək dərs prosesində müəllimin şərhlərini anlamaq, tapşırıqları məntiqi ardıcıllıqla yerinə yetirmək üçün möhkəm baza yaradır.

Beləliklə, məktəb təliminə hazırlıq prosesində metodik işlərin düzgün və elmi əsaslarla təşkili uşağın sensor, idrak, təfəkkür və nitq inkişafının harmonik şəkildə formalaşmasına səbəb olur. Bu isə birbaşa olaraq uşağın I sinfə daha rahat uyğunlaşmasına, təlim motivasiyasının artmasına və yeni bilikləri mənimsəməsində yüksək nəticələr əldə etməsinə şərait yaradır.

Uşaqların məktəb təliminə hazırlığının effektivliyini artırmaq məqsədi ilə təlim məşğələlərində didaktik oyunların tətbiq edilməsi faydalıdır. Müəllim uşağın oyuna olan marağından istifadə edərək didaktik oyunu təlim məqsədinə yönəltməlidir.

Məktəbəqədər hazırlığın mahiyyəti çoxölçülülük, şəxsiyyət yönümlülük, proqressivlik, təcrübə əsaslılıq, inteqrasiya kimidir.

*Çoxölçülülük.* Məktəbəqədər hazırlığın təkcə idrak bacarıqları ilə deyil, sosial, emosional, nitq, motor və motivasiya sahələri ilə birlikdə aparılması; yəni uşağın bütün inkişaf istiqamətlərinin paralel nəzərə alınması.

*Şəxsiyyət yönümlülük.* Hər bir uşağın fərdi xüsusiyyətlərinin, inkişaf sürətinin, maraqlarının və ehtiyaclarının nəzərə alınması;

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

bütün uşaqlara eyni yanaşma deyil, fərdiləşdirilmiş pedaqoji münasibət göstərilməsi.

*Proqressivlik.* Hazırlığın mərhələli şəkildə təşkil olunması, uşağın bacarıqlarının tədricən çətinləşən tapşırıqlar və fəaliyyətlər vasitəsilə inkişaf etdirilməsi; əvvəlki biliklərin üzərində yenilərinin qurulması.

*Təcrübə əsaslılıq.* Uşağın öyrəndiklərini yalnız eşitməklə deyil, oyun, hərəkət, müşahidə və praktiki fəaliyyət yolu ilə qavraması; öyrənmənin real təcrübə üzərində qurulması.

*İnteqrasiya.* Müxtəlif inkişaf sahələrinin – idrak, sosial, emosional, nitq, motorika – bir-biri ilə əlaqəli şəkildə öyrədilməsi; məsələn, riyazi oyunda həm say bacarıqları, həm ünsiyyət, həm də əməkdaşlıq vərdişlərinin eyni anda inkişaf etdirilməsi.

Metodik işlərin təşkili bir tərəfdən pedaqoqun peşəkar fəaliyyətinin təkmilləşdirilməsini, digər tərəfdən isə uşağın təlimə adaptasiya prosesinin dəstəklənməsini hədəfləyir. Müasir məktəbəqədər təlim yanaşmaları göstərir ki, uşağın məktəbə psixoloji hazırlığı təkcə idraki bacarıqlardan ibarət deyil, həm də onun sosial münasibətlərə girə bilməsi, öz davranışını tənzimləməsi, münaqişə situasiyalarından çıxma bacarığı və emosional sabitliyi ilə müəyyən olunur. Bu isə metodik işlərin yalnız akademik məzmun ətrafında deyil, uşağın şəxsiyyətyönlü inkişafı istiqamətində də qurulmasını tələb edir.

Bu prosesdə tərbiyəçi-müəllim fəaliyyətinin planlaşdırılması xüsusi əhəmiyyət daşıyır. Planlaşdırma zamanı məşğələlərin ardıcıllığı, məqsəd və vəzifələrin müəyyənləşdirilməsi, inkişaf fəaliyyətlərinin yaş xüsusiyyətlərinə uyğunlaşdırılması, inteqrativ yanaşmaların tətbiqi nəzərdə tutulur. Ümumiyyətlə, metodik iş elə təşkil edilməlidir ki, həm tərbiyəçi-müəllimin işi sistemləşsin, həm də uşağın təlimə münasibəti pozitiv və motivasiyalı olsun. Metodik işlərin təşkilində pedaqoqun daim

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

öz üzərində işləməsi, yeni yanaşmaları mənimsəməsi mühüm rol oynayır. Tərbiyəçi-müəllim müasir təlim modellərini, xüsusilə də uşaq mərkəzli və diferensiallaşdırılmış yanaşmaları tətbiq etməyi bacarmalıdır. Bu kontekstdə həm metodik ədəbiyyatla işləmək, həm də praktik təcrübə mübadiləsi aparmaq vacib hesab olunur. Pedaqoqların metodik seminar, müşavirə və treninqlərdə iştirakı onların peşəkar inkişafını dəstəkləyir və təcrübədə daha çevik, effektiv təlim texnikalarından istifadə etmələrinə şərait yaradır.

Metodik işlərin təşkilində digər mühüm məqam – təlim prosesinin ardıcıllığı və inteqrasiyasıdır. Məşğələlər elə qurulmalıdır ki, biliklər uşaq üçün məntiqi ardıcıllıq təşkil etsin, mövzular bir-birini tamamlasın və təlimin bütün inkişaf sahələrini – nitq, məntiqi düşüncə, emosional-sosial bacarıqları, yaradıcılığı və hərəkət koordinasiyasını əhatə etsin. İnterdisiplinar inteqrasiya, xüsusilə məktəbə hazırlıq mərhələsində, uşağın dünyanı daha bütöv qavramasına şərait yaradır.

Nəhayət, metodik işlərin səmərəliliyi təlim mühitindən də asılıdır. Təhlükəsiz, emosional cəhətdən rahat, əyani və funksional vasitələrlə təmin olunmuş mühit uşağın təlim motivasiyasını gücləndirir. Tərbiyəçi-müəllimin uşaqlarla ünsiyyətdə səmimi, dəstəkləyici, açıq və empatik olması sosial-psixoloji hazırlığın əsas şərtlərindən biridir. Bu mühit uşağın özünü ifadə etməsinə, müstəqil qərar verməsinə və sosial bacarıqlarını sərbəst şəkildə tətbiq etməsinə də imkan yaratmalıdır.

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 30-33
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 30-33
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

**Sənubər Həmidli**
Azərbaycan Texniki Universiteti
dissertant
https://orcid.org/0009-0008-7961-8597
sanubar.hamidli@mail.ru

# Dini-mifoloji leksikanın dilin lüğət tərkibindəki rolu və inkişafı

***Açar sözlər:*** *dini leksika, mifologiya, leksik inkişaf, semantik dəyişmə, dil və mədəniyyət*
***Keywords:*** *religious lexicon, mythology, lexical development, semantic change, language and culture*

Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də xalqın tarixi yaddaşını, dünya görüşünü və mədəni dəyərlərini özündə əks etdirən mühüm bir fenomendir. Dilin lüğət tərkibində xüsusi yer tutan dini-mifoloji leksika insanlığın ilkin dünyagörüşü, kosmoqonik təsəvvürləri, etik və fəlsəfi baxışları ilə sıx bağlıdır. Bu leksik təbəqə əsrlər boyu formalaşaraq müasir dillərin leksik sistemində həm ilkin, həm də metaforik mənalarda aktiv şəkildə işlənməkdədir.

Azərbaycan dilinin leksik tərkibində dini və mifoloji mənşəli sözlər qədim türk inanclarından, İslam mədəniyyətindən, eləcə də Şərq və Qərb mifoloji sistemlərindən qaynaqlanaraq zəngin bir semantik sahə yaratmışdır. Bu baxımdan dini-mifoloji leksikanın dilin lüğət tərkibindəki rolu və inkişafı aktual elmi problem kimi çıxış edir.

Dini-mifoloji leksikanın anlayışı və mənşəyini müzakirə etsək, deyə bilərik ki, dini-mifoloji leksika insanın təbiət hadisələrini, kainatı və öz varlığını izah etməyə çalışdığı ilkin mərhələlərlə sıx bağlıdır. Mifoloji sözlər əsasən tanrılar,

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

fövqəltəbii varlıqlar, kosmik qüvvələr, həyat və ölüm anlayışları ilə əlaqədar olur. Dini leksika isə daha çox sistemli inanc formalarının – xüsusən İslam dininin – termin və anlayışlarını əhatə edir. Zamanovun fikrincə, "mifoloji təfəkkür dilin ilkin semantik qatını təşkil edir və sonrakı dini düşüncə sistemlərinin formalaşması üçün zəmin yaradır" (Zamanov, 2011, s. 87). Bu baxımdan dini leksika mifoloji söz ehtiyatının inkişaf etmiş, ideoloji cəhətdən sistemləşmiş forması kimi çıxış edir.

Azərbaycan dilində tanrı, ruh, cin, mələk, şeytan, qiyamət, cənnət, cəhənnəm, dua, günah, savab kimi sözlər dini-mifoloji leksikanın əsas nümunələrindəndir. Bu sözlər həm terminoloji, həm də bədii üslubda fəal işlənir.

Dilin lüğət tərkibində dini-mifoloji leksikanın rolu dilin semantik zənginliyini artıran, obrazlılığı gücləndirən əsas leksik qatlardan biri olmasıdır. Bu sözlər dilə yalnız terminoloji məna qazandırmır, eyni zamanda, metaforik və simvolik mənalar da yaradır. Məsələn, "şeytan" sözü yalnız dini varlıq anlamı daşımır, eyni zamanda, "şər, hiyləgər insan" mənasında məcazi şəkildə işlədilir. Eyni hal "mələk" sözündə də müşahidə olunur: "mələk kimi insan" ifadəsi mərhəmət və saflıq semantikasını bildirir. Xəlilov qeyd edir ki, "dini leksika dilin ekspressiv imkanlarını artırır və bədii nitqin emosional təsir gücünü yüksəldir" (Xəlilov, 2015). Bu, xüsusilə folklor, klassik poeziya və müasir ədəbiyyatda açıq şəkildə özünü göstərir.

Dini-mifoloji leksikanın tarixi inkişaf mərhələlərinə gəldikdə isə Azərbaycan dilində dini-mifoloji leksika əsasən üç mərhələdə formalaşmışdır: 1.Qədim türk mifoloji mərhələsi – Tanrıçılıq, göy, yer-su kultları, ruh və təbiət qüvvələri ilə bağlı sözlər bu mərhələyə aiddir: Göy Tanrı, Umay, yer, su, ruh və s.; 2.İslam mərhələsi – VII əsrdən etibarən İslam terminologiyası Azərbaycan dilinə daxil olmuşdur: namaz, oruc, zəkat, həcc, dua, günah və s.; 3.Müasir mərhələ – dini-mifoloji sözlərin

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

böyük hissəsi artıq terminoloji məhdudiyyətdən çıxaraq üslubi və frazeoloji vahid kimi işlənir. Qasımovun fikrincə, "İslamın qəbulundan sonra Azərbaycan dilinin lüğət tərkibində dini terminlərin sayı sürətlə artmış və bu proses yüzillər boyu davam etmişdir" (Qasımov, 2009).

Semantik inkişaf və metaforikləşmə məsələsinə nəzər salsaq, dini-mifoloji leksikanın əsas inkişaf istiqamətlərindən birinin semantik genişlənmə və metaforikləşmə olduğunu müşahidə edərik. İlkin dini məna zaman keçdikcə məcazi, psixoloji və sosial məna qazanır. Məsələn: - Cənnət – yalnız axirət məkanı deyil, həm də "xoşbəxtlik yeri" mənasında işlədilir. - Qiyamət – "son", "böhranlı vəziyyət" anlamı qazanmışdır. - Dua – sadəcə ibadət aktı yox, həm də "xeyir-dua, arzu" mənasını bildirir. Hüseynov yazır: "Dini mənşəli sözlərin məcaziləşməsi onların canlı danışıq dilinə inteqrasiyasını sürətləndirən əsas amillərdəndir" (Hüseynov, 2013, s. 142).

Dini-mifoloji leksika və milli mədəniyyət bir-biri ilə əlaqəlidir. Dini-mifoloji leksika yalnız dil faktı deyil, həm də mədəniyyət göstəricisidir. Bu leksik qat xalqın etik dəyərlərini, sosial davranış normalarını və mənəvi dünyasını formalaşdırır. Atalar sözləri və məsəllərdə də dini-mifoloji elementlər geniş yayılmışdır: - Allah səbir verənə kömək edər.; - Günahın axırı peşmanlıqdır. Bu tip ifadələr dini anlayışların gündəlik həyat düşüncəsinə necə hopduğunu açıq şəkildə nümayiş etdirir. Mirzəliyev bu barədə qeyd edir ki, "Dini leksika milli psixologiyanın formalaşmasında mühüm ideoloji funksiya daşıyır" (Mirzəliyev, 2017).

Aparılan təhlil göstərir ki, dini-mifoloji leksika Azərbaycan dilinin lüğət tərkibində həm tarixi, həm semantik, həm də üslubi baxımdan əvəzsiz rol oynayır. Bu leksik qat dilin ilkin mifoloji dünyagörüşündən başlayaraq İslam mədəniyyəti və müasir dövrə qədər inkişaf edərək çoxqatlı bir sistem formalaşdırmışdır.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

Dini-mifoloji sözlər yalnız terminoloji vahid kimi deyil, həm də metaforik, frazeoloji və emosional-ekspressiv vasitə kimi aktiv şəkildə işlənir. Onların semantik inkişafı dilin dinamikliyini, mədəniyyətlə qarşılıqlı əlaqəsini və tarixi yaddaşını aydın şəkildə ortaya qoyur.

## Ədəbiyyat

1. Hüseynov, A. (2013). *Müasir Azərbaycan dilinin leksikası*. Elm.
2. Xəlilov, B. (2015). *Dilçilikdə semantika məsələləri*. Təhsil.
3. Qasımov, M. (2009). *Azərbaycan dili və dini terminologiya*. Nurlan.
4. Mirzəliyev, H. (2017). *Dil və milli təfəkkür problemləri*. Elm və Təhsil.
5. Zamanov, R. (2011). *Mifoloji təfəkkür və dil*. Şərq-Qərb.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

**Qısxanım Allahverdiyeva**
Bakı Slavyan Universiteti
https://orcid.org/0009-0002-0855-7607
a.qisxanim.92@mail.ru

# Qərbi Azərbaycanın Meğri şivələrində fitonimlərin leksik-semantik xüsusiyyətləri

***Açar sözlər:*** *fitonim, Meğri şivələri, semantik motivasiya, dialektoloji variantlılıq, etnolinqvistika, Qərbi Azərbaycan, bitki adları*

***Keywords:*** *phytonym, Meghri dialects, semantic motivation, dialectological variation, ethnolinguistics, Western Azerbaijan, plant names*

Bu tədqiqat Qərbi Azərbaycanın Meğri şivələrində işlənən fitonimlərin leksik-semantik strukturunu araşdırır. Fitonim vahidlərinin morfoloji quruluşu, semantik motivasiyası və dialektoloji xüsusiyyətləri müəyyənləşdirilmişdir. Tədqiqat göstərir ki, fitonim leksikasının təqribən 40%-i özünəməxsus dialekt variantları ilə təqdim olunur və etnosun dünyagörüşünü əks etdirən mühüm etnolinqvistik vahidlərdir.

Fitonimlər insanın təbiətlə ilkin əlaqələrini əks etdirən və etnolinqvistik araşdırmaların əsas obyekti olan leksik sistemdir. Qərbi Azərbaycanın Meğri şivələri arxaik leksik tərkibi və özünəməxsusluğu ilə Azərbaycan dialektologiyasında xüsusi maraq doğurur. Regionun coğrafi izolyasiyası orijinal fitonim vahidlərinin yaranmasına və qorunmasına şərait yaratmışdır. Fitonimlərin leksik-semantik tədqiqi etnosun təfəkkür tərzini, təbiəti dərk etmə metodlarını və məişət mədəniyyətini açıqlayır.

Fitonimlərin morfoloji quruluşu: Meğri şivələrində fitonimlərin təqribən 55%-i sadə sözlər şəklindədir: ğərağat (qarağat),

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

tırsang (turşəng), yemişan (yovşan), çətənə (gicitkən). Bu vahidlər dialekt fonetikasının xüsusiyyətlərini daşıyır və ədəbi dildən fərqlənir.

Mürəkkəb fitonimlərdə iki əsas model üstünlük təşkil edir. Təyinedici + təyinolunan strukturu ən məhsuldardır: ağ tikan, qara tüt, çöl yasəməni, dəmir dikən, dağ nanəsi. Təyinedici komponent bitkilərin rəng, dad, ekoloji mühit və ya morfoloji xüsusiyyətlərini göstərir. İsim + isim strukturu metaforik və metonimik əlaqələri ifadə edir: arı otu, ilan yaprağı, quş üzümü, dovşan kələmi, keçi çəkirgəsi. Burada ikinci komponent bitki ilə heyvan, obyekt və ya funksiya arasında assosiativ körpü qurur.

Üçkomponentli strukturlar nisbətən azdır, lakin dialektin təsviri imkanlarını göstərir: dağ qara gilə, çöl ağ çiçək, böyük yarpaq nana. Fonetik variantlılıq dialekt proseslərinin nəticəsidir: yovşan-yemişan, nanə-nənnə, sitəl-zitəl, şəftalı-şafdalı, bibər-bibar.

Meğri şivələrində fitonimlərin semantik motivasiyası duyğusal təcrübəyə əsaslanır və bir neçə əsas istiqamətdə reallaşır: - Rəng əsaslı fitonimlərdə vizual xarakteristika dominant rol oynayır: ağ üzüm, qara tikan, qızıl gül, bənövşə çiçək, sarı reyhan. Rəng həm fiziki görünüşü, həm də növ diferensiasiyasını bildirir. - Forma əsaslı nominasiyada bitkilərin morfoloji strukturu metaforik yolla adlandırılır: qılçıq ot ( incə saplı), ürək yapraq (ürək formalı), şana yarpaq (daraq şəkilli), göbələk baş (başlıq formalı). Bu adlarda antropomorf və zoomorfoloji assosiasiyalar müşahidə olunur.

Funksional-təyinat motivasiyası bitkilərin istifadə sahəsinə əsaslanır: çöhrə otu (dəri üçün), kəsik otu (yara müalicəsi), qan durduran, qurşaq otu (mədə xəstəlikləri), arı çiçəyi (nektarlı bitki). Bu qrup xalq təbabəti və təsərrüfat biliklərini əks etdirir.

Zoomorfoloji və antropomorfoloji assosiasiyalar metaforik nominasiyanın xüsusi növünü təşkil edir: ayı üzümü (iri

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 34-36
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 34-36
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

meyvəli), dəvətabanı (böyük yarpaq), gəlin əliği (zərif bitki), qarı saçı (ağımtıl). Bu adlar bitki və arquetipik obraz arasında semantik körpü yaradır.

Meğri şivələrində fitonimlərin 35-40%-i ədəbi dildən əhəmiyyətli fərqlənir. Fonetik variantlılıq dialekt proseslərinin məhsuludur: noxud-nexud, turşəng-tırşəvang, côngə-cövga. Leksik variantlılıqda tamamilə fərqli köklü sinonimik qruplar mövcuddur: çətənə-giçən, pəndir yaprağı-sirəncə, çöl kələmi-göyərti. Bu, mikrodialekt təbəqələşməsini göstərir.

Fitonimlər etnosun folklorik və məişət diskursunda mədəni yüklənmişliyə malikdir. Nanə müalicəvi təmizlik simvolu, reyhan müqəddəslik, üzüm və tut məhsuldarlıq, gül isə gözəllik və keçicilik semantikası daşıyır. Xalq təbabətində "kəsik otu", "qan saxlayan" kimi adlar empatik-praktik biliklərə əsaslanır. Məişət praktikasında "dəmləmə otu", "boyaq bitkisi", "süpürgə otu" kimi vahidlər fitonimlərin funksional semantik təbəqələrini nümayiş etdirir.

Qərbi Azərbaycanın Meğri şivələrində fitonimlərin leksik-semantik xüsusiyyətləri dialektoloji zənginliyi və etnolinqvistik orijinallığı təsdiq edir. Fitonimlərin nominativ əsasları rəng, forma, funksiya və ekoloji mühitlə müəyyənləşir. Dialekt variantlılığı regional izolyasiyanın və təbii linqvistik dinamikanın nəticəsidir. Fitonimlər etnosun dünyagörüşünü, təbiətlə münasibətlərini və mədəni təcrübəsini əks etdirən mühüm etnolinqvistik materialdır. Bu tədqiqat Azərbaycan dialektologiyasının leksik-semantik xəritəsini tamamlayır və gələcək komparativ və etimoloji araşdırmalara əsas yaradır.

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 37-39
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 37-39
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

**Əsmər Tahirli**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0002-2953-472X
esmeribrahimbeyli@gmail.com

# Kamançanı Avropa musiqi alətlərindən (skripka) fərqləndirən diapazonu

***Açar sözlər:*** *kamança, skripka, diapazon, muğam, tembr, ifa texnikası*
***Keywords:*** *kamancha, violin, range, mugham, timbre, performance technique*

Azərbaycan musiqi mədəniyyətinin qədim və zəngin ənənələri, xüsusilə Şuşanın "Qafqazın konservatoriyası" kimi formalaşması və muğam sənətinin inkişafında kamançanın xüsusi rolunun izah edilməsi olduqca aktual rol oynayır. Tezisdə kamançanın diapazonu skripka kimi Avropa simli-yaylı alətlərilə müqayisədə təhlil edilmiş, onun mikrotonal ifadə imkanları, tembral zənginliyi və emosional ifadə gücü vurğulanmışdır. Tezisdə o da göstərilir ki, kamançanın dar diapazonu onun funksional zəifliyi kimi deyil, məqam ifadəsindəki elastikliyi və tembral zənginliyi ilə əvəz olunur. Burada ifa exnikası və müqayisəli-analiz metodundan istifadə edilmişdir. Məqsəd hər iki alətin diapazon və tembrini elmi-nəzəri baxımdan əsaslandıraraq, Şərq və Qərb musiqisi arasındakı səslənmə fərqlərini ortaya qoymaqdır. Müasir dövrdə kamançanın diapazon imkanlarının genişləndirilməsi istiqamətində aparılan texniki yeniliklər, sim materiallarının təkmilləşdirilməsi, rezonator quruluşunun optimallaşdırılması və səhnə texnologiyalarının tətbiqi alətin həm ənənəvi muğam repertuarında, həm də müxtəlif müasir janrlarda istifadəsini

artırmışdır. Nəticədə kamança, skripkadan fərqli olaraq, Azərbaycan musiqi kimliyinin və muğam sənətinin ayrılmaz elementi kimi özünəməxsus səs fəlsəfəsi və emosional dərinliyi ilə seçilir.

Tədqiqatlar göstərir ki, kamançanın diapazonu təxminən iki oktava yarım – üç oktava arasında dəyişsə də, alət mikrointerval ifadə imkanları, məqam sisteminə uyğun səslənmə elastikliyi, tembr zənginliyi və muğamın emosional yükünü daşımaq bacarığı ilə fərqlənir. Skripka isə temperasiyalı xromatik sistemə uyğunlaşdırılmış quruluşu və yüksək texniki imkanları sayəsində dörd oktavadan artıq diapazona malikdir. Bununla belə, kamançanın məqam intonasiyasına uyğun təbii ifadəliliyi onu Şərq musiqisi üçün vazkeçilməz edir.

Müasir dövrdə kamançanın diapazonunun genişləndirilməsi istiqamətində sim materialları, rezonator quruluşu, ifa texnikası və səhnə avadanlığı sahəsində aparılan yeniliklər alətin imkanlarını daha da artırır. Kamançanın caz, füzion və dünya musiqisi kimi müxtəlif janrlara inteqrasiyası diapazonun funksional miqyasını genişləndirən mühüm amillərdən biridir.

Nəticə etibarilə, kamança skripkadan daha dar diapazona malik olsa da, onun mikrotonal üstünlükləri, ifadə gücü və muğam sənətindəki əvəzsiz rolu aləti Azərbaycan musiqi kimliyinin əsas simvollarından birinə çevirir. Azərbaycan musiqi mədəniyyəti əsrlər boyunca Şərq və Qərb mədəniyyətlərinin qovuşduğu bir məkanda formalaşaraq özünəməxsus zəngin əlamətlər kəsb edib. Bu musiqi irsinin ən yüksək zirvələrindən biri isə muğam sənətidir. Muğamın inkişaf etdiyi mühüm mədəni mühitlər içərisində Şuşa şəhəri xüsusi yer tutur. Tarixi mənbələr göstərir ki, Şuşanı hələ XIX əsrdən "Qafqazın konservatoriyası" adlandırırdılar. Bu adın verilməsi heç də təsadüfi deyil, çünki Şuşa yalnız böyük xanəndə məktəbinin

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

deyil, həm də virtuoz tarzən və kamançaçıların yetişdiyi sənət ocağı kimi Azərbaycan musiqi tarixində əvəzsiz rol oynamışdır.

Şuşada formalaşan musiqi mühiti muğamın qanunauyğunluqlarına, ifa ənənələrinə və şifahi professional musiqi məktəbinə öz möhürünü vurub. Burada yaranan musiqi ənənəsi zamanla rəsmi təhsil ocaqları meydana gəlməmişdən əvvəl belə, muğamın ən yüksək professional standartlarla öyrədildiyi, ifa edildiyi və nəsildən-nəslə ötürüldüyü təbii konservatoriya funksiyasını yerinə yetirib.

Bu zəngin ənənənin ayrılmaz hissəsi kimi kamança muğam triosunun əsas alətlərindən biri olaraq həm melodik xəttin yükünü daşıyır, həm də muğamın emosional-psixoloji təsir gücünü formalaşdırır. Kamança ifaçısı yalnız müşayiətçi deyil, muğamda muğənni ilə bərabər yaradıcı tərəfdaşdır. Bu alətin diapazonu, mikrointerval ifadə imkanları, tembr zənginliyi muğamın mahiyyətini açmaq üçün xüsusi əhəmiyyət daşıyır.

Digər musiqi alətlərindən fərqli olaraq, kamançanın qol pərdələri yoxdur, qolun üstündə pərdə işarələri də göstərilməyib. Ona görə də bu alətdə ifa edən şəxs yüksək eşitmə qabiliyyətinə malik olmalıdır. Kamançanın qol pərdələrinin olmaması onun istənilən şəkildə musiqi diapazonunu genişləndirməyə imkan verir. Simlərin səslənməsi üçün zoğal ağacından hazırlanmış, bir qədər əyilmiş çubuq şəklində olan və uclarına at tükü dəsti bağlanmış kamandan istifadə edilir. Beləliklə, kamança Azərbaycan muğamının milli və spesifik ifadəsini formalaşdıran, emosional və akustik zənginliyi ilə fərqlənən, milli musiqi kimliyinin ayrılmaz elementi kimi mədəniyyətimizdə xüsusi yer tutur.

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 40-43
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 40-43
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

**Shabnam Huseynli**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0002-8371-5257
huseynlisbnem@gmail.com

# The Impact of Modern Teaching Methods on the Formation of Knowledge and Skills

***Keywords:*** *modern teaching methods, knowledge formation, skill development, student-centered learning, active learning strategies, interactive teaching, learning outcomes, competency-based education, pedagogical approaches*
***Açar sözlər:*** *müasir təlim metodları, biliklərin formalaşması, bacarıqların inkişafı, tələbə mərkəzli öyrənmə, fəal təlim strategiyaları, interaktiv tədris, öyrənmə nəticələri, kompetensiya əsaslı təhsil, pedaqoji yanaşmalar*

In the modern era, education is no longer limited to the mere transmission of knowledge. It is increasingly viewed as a process that serves to develop students' individual skills, critical thinking, creative approaches, and practical abilities. In this context, traditional teacher-centered methods are often considered insufficient, as they limit opportunities for active learning. Modern teaching methods, on the other hand, place students at the center of the learning process, making education interactive, dynamic, and practically oriented.

Modern teaching methods increase students' engagement in the learning process and provide opportunities for active learning, critical thinking, and practical application of knowledge (Srinivasa, Kurni, Saritha, 2022).

Modern teaching methods are implemented in various forms. Active learning methods ensure that students participate actively during lessons. These methods allow students not only to receive

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

information but also to analyze it, solve problems, and make decisions independently. Group work, discussions, debates, problem-based learning, and project-based instruction fall into this category. Active learning develops both intellectual and social skills, increases students' motivation, and strengthens the retention of acquired knowledge.

Interactive teaching methods utilize digital and technological tools to enhance lesson effectiveness. Students complete interactive tasks, ask questions during lessons, and engage in discussions with teachers and peers. This approach contributes to both knowledge acquisition and skill development. Interactive learning promotes critical and analytical thinking, as well as creative abilities, enabling students to apply knowledge in practical situations. Personalized learning refers to adapting teaching strategies to individual students' needs and abilities. Since each student has a different learning pace, capacity, and interest, taking these differences into account accelerates knowledge and skill formation. Personalized learning allows students to work on topics aligned with their interests, solve problems independently, and apply acquired knowledge in practical contexts.

When modern teaching methods are combined with a competency-based approach, their effectiveness increases significantly. This approach goes beyond transmitting theoretical knowledge, focusing also on developing real-life skills, collaboration, communication abilities, and problem-solving capabilities. Competency-based teaching equips students with knowledge while also preparing them for practical applications.

The application of modern teaching methods manifests in several ways. Students acquire deeper understanding of the material and retain knowledge for longer periods. Their practical skills, such as problem-solving, analytical thinking, teamwork,

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

and communication, improve significantly. Students' motivation increases, and their engagement in learning rises. Learning outcomes are enhanced, and students achieve greater success academically and practically.

Several principles are essential for the effective implementation of modern teaching methods. Student-centered approaches ensure active participation in the learning process. Feedback allows teachers to assess students' performance during and after lessons and to monitor their development. Integration of real-world problems into lessons enables students to apply knowledge in practical contexts. Additionally, the use of technology, multimedia tools, and digital resources makes the learning process more engaging and effective.

Modern teaching methods, therefore, make the learning process interactive, active, and practice-oriented. They enhance student motivation and contribute to the development of intellectual, social, and practical skills. Without the application of contemporary pedagogical approaches, teaching remains less effective and fails to fully prepare students for real-world challenges. Innovative teaching strategies, including project-based and interactive learning, significantly improve students' knowledge retention and skill development (Chang, 2025).

Modern teaching methods play a fundamental and indispensable role in the development of students' knowledge and skills. Unlike traditional teacher-centered approaches, these methods make the learning process student-centered, interactive, and practically oriented. Methods that ensure active student participation, such as active learning, discussions, and group work, strengthen students' critical and analytical thinking, problem-solving, and creative abilities. At the same time, lessons enriched with interactive and digital resources increase student motivation and make the learning process more

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

engaging and effective. Personalized learning and competency-based approaches allow teaching strategies to be adapted to students' individual needs and abilities. This enables students to simultaneously develop both their theoretical knowledge and practical skills. Modern teaching methods also cultivate collaboration, communication, responsibility, and self-management skills, enhancing academic achievement and preparing students for their future professional activities.

Organizing lessons in this manner not only increases students' engagement in the learning process but also ensures that the knowledge acquired during lessons is retained longer and applied more effectively. Without the implementation of modern pedagogical methods, the teaching process remains less efficient and cannot fully support the comprehensive development of students' necessary skills.

Thus, modern teaching methods are an essential tool for fostering the development of knowledge and skills. They transform the learning process into a complex system that not only conveys theoretical knowledge but also fully develops students' social, intellectual, and practical competencies. The consistent application of contemporary pedagogical approaches enhances the quality of education, increases student motivation, and ensures that students are better prepared for both academic and professional challenges in the future.

## References

1. Srinivasa, K.G., Kurni, M., Saritha, K. (2022). *Learning, Teaching, and Assessment Methods for Contemporary Learners: Pedagogy for the Digital Generation*. Springer Singapore.
2. Chang, M. (Ed.). (2025). *Innovative Teaching Methods and Learning Resources*. Springer Singapore.

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 44-51
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 44-51
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

**Huma Hümeyra Mikayılov**
İstanbul Topkapı Universiteti
https://orcid.org/0009-0004-8747-8177
humahumeyraunal@stu.topkapi.edu.tr

# Avrupa ülkelerinde obeziteye etki eden faktörlerin veri madenciliği ve doğal dil işleme yaklaşımıyla hibrit analizi

***Anahtar kelimeler:*** *obezite, veri madenciliği, doğal dil işleme (NLP), hibrit analiz modeli, random forest, sağlık politikaları*

***Açar sözlər:*** *obezite, data mining, təbii dil emalı (NLP), hibrid analiz modeli, random forest, sağlamlıq siyasəti*

***Keywords:*** *obesity, data mining, natural language processing (NLP), hybrid analysis model, random forest, health policies*

Dünya Sağlık Örgütü (WHO) perspektifiyle obezite, sağlığı bozacak ölçüde vücutta anormal veya aşırı yağ birikmesi olarak tanımlanmakta ve 21. yüzyılın en kritik halk sağlığı sorunlarından biri olarak kabul edilmektedir. Klinik olarak yetişkin bireylerde Vücut Kitle İndeksinin (BMI) 30 kg/m² ve üzerinde olması obezite, 25-29,9 kg/m² aralığı ise "fazla kilolu" olarak sınıflandırılmaktadır. WHO verilerine göre obezite; tip 2 diyabet, kardiyovasküler hastalıklar, hipertansiyon ve belirli kanser türleri için primer risk faktörüdür. Özellikle çocuk ve ergenlerde BMI-z skoru üzerinden yapılan değerlendirmeler, bu yaş grubundaki artışın ilerleyen yıllarda ciddi metabolik bozuklukları beraberinde getirdiğini göstermektedir.

Avrupa bölgesi, sanayileşmiş yaşam tarzı ve ultra-işlenmiş gıda sistemleri nedeniyle bu krizin odağında yer almaktadır. Bu

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

çalışma; Fransa, Türkiye, İspanya, Yunanistan ve İngiltere verilerini temel alarak obezitenin arkasındaki sosyoekonomik ve davranışsal itici güçleri deşifre etmeyi amaçlamaktadır. Araştırmanın temel problemi, modern yaşamın bir getirisi olan sedanter (hareketsiz) yaşam tarzının, dijital medya kullanım sürelerinin ve fast food tüketimindeki artışın obezite prevalansı üzerindeki etkisini saptamaktır. Geleneksel istatistiksel yöntemlerin ötesine geçerek, bu çalışma Python tabanlı makine öğrenmesi algoritmalarını ve metinsel verileri anlamlandıran NLP tekniklerini aynı hibrit mimaride birleştirmektedir.

Araştırma süreci, veri madenciliği projeleri için endüstri standardı olan CRISP-DM (Cross Industry Standard Process for Data Mining) metodolojisi üzerine kurgulanmıştır. Bu kapsamda; veri setindeki gürültülü verilerin temizlenmesi, Min-Max normalizasyonu ile ölçekleme yapılması ve kategorik değişkenlerin one-hot encoding yöntemiyle sayısal forma dönüştürülmesi gibi kritik ön işleme adımları uygulanmıştır. Sayısal modelleme safhasında obezite oranlarını tahmin etmek için Random Forest Regressor algoritması tercih edilmiş; risk gruplarının sınıflandırılmasında ise Decision Tree Classifier algoritması kullanılmıştır. Metinsel veri analizinde (NLP) ise dokümanların sayısal vektörlere dönüştürülmesi için TF-IDF tekniği uygulanmış ve risk sınıflandırması için Lojistik Regresyon modeli entegre edilmiştir.

Bu çalışmanın teorik ve tıbbi altyapısı, küresel sağlık otoritelerinin sunduğu epidemiyolojik standartlar üzerine inşa edilmiştir. Bu bağlamda, Dünya Sağlık Örgütü (WHO, 2024) tarafından yayımlanan güncel kılavuzlar ve Vücut Kitle İndeksi (VKİ) sınıflandırma kriterleri; obezitenin “sağlığı bozacak ölçüde anormal veya aşırı yağ birikimi” olarak tanımlanması bakımından araştırmamızın temel kavramsal çerçevesini oluşturmuştur. WHO'nun (2024) sağladığı bu kurumsal veriler,

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

çalışmada kullanılan 55 gözlem biriminin risk düzeylerinin bilimsel geçerlilikle kategorize edilmesini sağlamıştır. Özellikle WHO (2022) Avrupa Bölgesel Obezite Raporu, bölgedeki prevalans artışını sosyoekonomik riskler ve politika önerileriyle ilişkilendirerek, örneklem olarak seçilen Fransa, İngiltere ve Türkiye gibi stratejik aktörlerin bölgesel bağlamda değerlendirilmesine akademik bir zemin hazırlamıştır.

Avrupa'daki obezite eğilimlerini tarihsel bir perspektifle yorumlamak amacıyla bu çalışmada, Our World in Data veri tabanının sunduğu zaman serisi analizlerinden ve kapsamlı istatistiksel grafiklerden yararlanılmıştır. Söz konusu veriler, obezite oranlarının zaman içerisindeki değişim dinamiğini anlamamıza olanak sağlarken; BBC News Türkçe ve Doğruluk Payı bültenleri aracılığıyla Türkiye'nin küresel sıralamadaki yükselen ivmesi ve ulusal sağlık politikalarındaki değişim gerekliliği çalışmanın problem tanımına entegre edilmiştir. Bu süreçte, prevalans verilerinin doğru bağlamda yorumlanması adına Tazminat Hukuku platformundaki demografik istatistikler ve Wikipedia bünyesindeki ülke bazlı raporlar, karşılaştırmalı bir düzlemde analiz yapılmasına imkân tanımıştır.

Çalışmanın klinik ve fizyolojik derinliğini sağlamak adına, obezitenin metabolik komplikasyonlarını inceleyen temel bilimsel araştırmalar referans alınmıştır. Spalding ve ark. (2008) tarafından *Nature* dergisinde yayımlanan ve insanlardaki yağ hücresi (adiposit) döngüsünü deşifre eden çalışma, obezitenin yalnızca basit bir beslenme hatası değil, hücresel düzeyde kendine özgü metabolik süreçleri olan biyolojik bir olgu olduğunu kanıtlaması bakımından araştırmamızın hücresel temelini oluşturmuştur. Benzer şekilde, Bonfrate ve ark. (2014) tarafından yürütülen araştırma, patolojik vücut yağının safra kesesi hastalıkları ve pankreatit riski üzerindeki doğrudan etkilerini ortaya koyarak, modelimizde saptanan "yüksek risk"

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

gruplarının klinik ciddiyetini metodolojik olarak temellendirmiştir.

Araştırmanın özgün metodolojik katmanını oluşturan davranışsal analizlerde, modern yaşamın obezojenik etkileri literatür ışığında kritik edilmiştir. Esma Selim (2018) tarafından sunulan Türkiye'deki fast food tüketim alışkanlıkları analizi, modelimizde obezite artışını açıklayan en güçlü bağımsız değişkenlerden birini bağlamsallaştırmıştır. Ayrıca, Cognitive Market Research sosyal medya pazar raporları, dijitalleşmenin yaşam tarzı üzerindeki deterministik gücü bağlamında değerlendirilerek; çalışmamızdaki "dijital medya kullanımı" değişkeninin sedanter (hareketsiz) yaşamı tetikleyen rolünü açıklayan teorik bir çerçeve sunmuştur. Son olarak, Obezite.com bünyesindeki güncel oranlar, küresel verileri Fransa gibi koruyucu beslenme kültürünün etkili olduğu bölgelerle karşılaştırmalı bir düzlemde analiz etmemize ve Doğal Dil İşleme (NLP) katmanındaki metinsel verileri zenginleştirmemize katkı sağlamıştır.

Bu bilimsel araştırmanın metodolojik omurgası, veri madenciliği projelerinde küresel bir standart olarak kabul edilen CRISP-DM (Cross Industry Standard Process for Data Mining) metodolojisi üzerine kurgulanmıştır. Çalışmanın veri evreni; Avrupa'nın demografik, kültürel ve ekonomik açıdan farklı dinamiklerini temsil eden Fransa, Türkiye, İspanya, Yunanistan ve İngiltere ülkelerinden derlenen, Dünya Sağlık Örgütü (WHO) standartlarıyla tam uyumlu 55 stratejik gözlem biriminden müteşekkil özgün bir veri setidir. Veri seti yapısı; nüfus artış hızı, kişi başı GSYİH, yıllık fast food tüketim frekansı, dijital medya ve teknoloji maruziyet süreleri gibi heterojen ve çok boyutlu değişkenleri içerecek şekilde tasarlanmıştır.

Veri ön işleme fazında, Python programlama dilinin güçlü veri analizi kütüphaneleri olan Pandas ve NumPy kullanılarak

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

veri seti üzerinde kapsamlı bir temizlik operasyonu yürütülmüştür. Bu aşamada eksik değer analizi yapılmış, veri bütünlüğünü bozan gürültülü kayıtlar ayıklanarak veri setinin analitik kalitesi maksimize edilmiştir. Algoritmaların öğrenme performansını optimize etmek ve farklı ölçeklerdeki değişkenlerin model üzerindeki ağırlıklarını dengelemek amacıyla, sayısal veriler Min-Max Skalalama yöntemiyle [0,1] aralığına normalize edilmiştir. Kategorik nitelikteki "ülke" ve "yıl" verileri ise, makine öğrenmesi algoritmalarının bu özellikleri matematiksel olarak işleyebilmesi için One-Hot Encoding tekniğiyle ikili sayısal vektör uzayına dönüştürülmüştür.

Modelleme stratejisi, birbirini tamamlayan nicel ve nitel analiz katmanlarından oluşan hibrit bir mimari üzerine inşa edilmiştir. Nicel katmanda, obezite oranlarını tahmin etmek (regresyon) amacıyla topluluk öğrenme yöntemi olan Random Forest Regressor algoritması, 100 karar ağacı (n_estimators=100) parametresiyle yapılandırılarak kullanılmıştır. Risk seviyelerini (düşük, orta, yüksek) kategorize etmek amacıyla ise yorumlanabilirliği ve karar destek kapasitesi son derece yüksek olan Decision Tree Classifier algoritması, Gini katsayısı ve maksimum derinlik (max_depth=5) kısıtlamalarıyla tercih edilmiştir.

Araştırmanın özgün metodolojik katmanını teşkil eden Doğal Dil İşleme (NLP) aşamasında, her bir ülkenin sosyo-kültürel ve yapısal karakteristiklerini betimleyen metinsel külliyat, NLTK (Natural Language Toolkit) kütüphanesi aracılığıyla ön işlemeden (stop-words temizliği, tokenizasyon) geçirilmiştir. Metinsel ifadelerin istatistiksel önemini belirlemek ve dokümanları matematiksel vektörlere dönüştürmek amacıyla TF-IDF (Term Frequency-Inverse Document Frequency) yöntemiyle 500 özellikli bir kelime matrisi oluşturulmuştur. Bu vektörler, Lojistik Regresyon algoritması ile risk sınıflarına atanmış ve elde edilen nitel bulgular, sayısal modellerden gelen

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

sonuçlarla çapraz doğrulamaya tabi tutularak hibrit modelin validasyonu sağlanmıştır.

Yürütülen deneysel simülasyonlar ve modelleme çalışmaları sonucunda, Random Forest Regressor modelinin obezite prevalansını tahmin etmede R^2 = 0.73 başarı skoruyla istatistiksel açıdan son derece yüksek bir açıklayıcılık sunduğu saptanmıştır. Modelin hata metrikleri incelendiğinde, tahmin edilen değerlerin gerçek verilerle olan sapmasının akademik olarak kabul edilebilir sınırlar dahilinde olduğu ve modelin veri setindeki doğrusal olmayan karmaşık ilişkileri başarıyla öğrendiği görülmüştür. Değişken önem dereceleri analiz edildiğinde, modernleşen yaşam tarzının iki kritik çıktısı olan "yıllık fast food tüketim frekansı" ve "günlük dijital ekran maruziyeti" değişkenlerinin, obezite prevalansı üzerindeki en güçlü yordayıcılar (driver forces) olduğu matematiksel olarak doğrulanmıştır.

Sınıflandırma performansını ölçmek amacıyla kurgulanan Decision Tree Classifier algoritması, %81,82 genel doğruluk (accuracy) oranına ulaşarak risk gruplarını ayırt etme noktasında üstün bir başarı sergilemiştir. Karmaşıklık matrisi (Confusion Matrix) detayları incelendiğinde, modelin özellikle "düşük risk" kategorisinde yer alan ülke profillerini tanımlamada %100 hassasiyet (recall) sergilediği gözlemlenmiştir. Bu bulgu, düşük riskli toplumlardaki koruyucu faktörlerin model tarafından net bir şekilde ayrıştırılabildiğini kanıtlamaktadır. Orta ve yüksek risk grupları arasındaki geçişkenlikler, ülkelerin sosyoekonomik dönüşüm hızlarıyla korelasyon göstermektedir.

NLP tabanlı metinsel analiz katmanından elde edilen veriler, nicel modellerle tam bir korelasyon içerisinde hareket ederek hibrit yaklaşımın tutarlılığını mühürlemiştir. TF-IDF yöntemiyle vektörleştirilen anlatılar, dijitalleşen yaşam tarzını ve beslenme deformasyonunu "yüksek risk" olarak valide etmiştir.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

Tartışma bölümünde bu bulgular literatürle ilişkilendirildiğinde; teknolojik determinizmin fiziksel aktivite yoksunluğunu tetiklediği ve sedanter yaşamın dijitalleşen yaşam pratikleri üzerinden obezite riskini matematiksel ve metinsel düzeyde eşzamanlı olarak artırdığı sonucuna varılmıştır. Bu durum, araştırmanın başında kurgulanan "dijitalleşme ve obezite arasındaki doğrudan ilişki" hipotezini her iki veri tipi üzerinden de doğrulamaktadır.

Bu araştırma, Avrupa ülkelerindeki obezite salgınının arkasındaki itici güçleri deşifre etmek amacıyla, Veri Madenciliği ve Doğal Dil İşleme (NLP) tekniklerini sentezleyen yenilikçi bir hibrit karar destek mekanizması ortaya koymuştur. Çalışmanın en çarpıcı sonucu, obezite prevalansındaki önlenemeyen artışın temelinde tek başına ekonomik refah düzeyinin (GSYİH) değil, modern yaşamın birer izdüşümü haline gelen yüksek kalorili beslenme alışkanlıkları ve teknoloji kullanım sürelerinin yer almasıdır. Random Forest ve Karar Ağaçları modellerinden elde edilen yüksek öngörü başarıları, yapay zekâ tabanlı hibrit mimarilerin halk sağlığı risklerini öngörmede ne kadar stratejik bir enstrüman olduğunu kanıtlamıştır.

Metodolojik olarak veri madenciliği ile NLP katmanlarının entegrasyonu, sağlık politikalarının optimizasyonunda sadece sayısal istatistiklerin değil, toplumların sosyo-kültürel anlatılarının da analiz edilmesi gerektiğini göstermiştir. Bu bağlamda, kamu sağlığı otoritelerine yönelik şu somut öneriler geliştirilmiştir: Obezite ile mücadele stratejilerinde yalnızca diyet müdahalelerine odaklanmak yerine, dijital medya kullanım sürelerinin düzenlenmesi, ekran başı geçirilen sürenin azaltılmasına yönelik toplumsal farkındalık kampanyalarının oluşturulması ve ultra-işlenmiş gıdalara erişimin kontrol altına alınması hayati önem taşımaktadır.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

Gelecek projeksiyonlarında, mevcut veri setinin tüm Avrupa ve komşu bölgeleri kapsayacak şekilde genişletilmesi, genetik yatkınlık verilerinin modele birer öznitelik olarak dahil edilmesi ve NLP süreçlerinde daha ileri derin öğrenme (Deep Learning) tabanlı transformatör modellerinin (BERT, GPT vb.) kullanılması hedeflenmektedir. Bu araştırma, dijital çağda obeziteyle mücadelenin ancak çok katmanlı, teknoloji destekli ve veriye dayalı analitik modellerle başarıya ulaşabileceğini kanıtlayarak literatürde özgün bir teorik ve pratik referans noktası oluşturmuştur.

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 52-55
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 52-55
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

**Aysel Məmmədli**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0002-8909-1801
ayselmemmedli783@gmail.com

# Məktəbəqədər yaşlı uşaqlarda dialoq qurma vərdişlərinin formalaşdırılması

***Açar sözlər:*** *dialoq vərdişləri, məktəbəqədər uşaqlar, dialoq nitqi, ünsiyyətin inkişafı, sosial qarşılıqlı əlaqə, erkən uşaqlıq təhsili*

***Keywords:*** *dialogue habits, preschool children, dialogic speech, communication development, social interaction, early childhood education*

Ünsiyyət və dialoq erkən uşaqlıq inkişafının mərkəzi komponentləridir, məktəbdə və sosial həyatda sonrakı uğurun əsasını təşkil edir. Dialoq vərdişlərinə təkcə nitq istehsalı deyil, həm də aktiv şəkildə qulaq asmaq, lazımi cavab vermək, suallar vermək və başqa bir natiqlə məna müzakirə etmək bacarığı daxildir. Dialoq tərbiyəçilər, müəllimlər və həmyaşıdları ilə qarşılıqlı əlaqədə tədricən inkişaf edən sosial və linqvistik bacarıqdır (Khanina, Li, 2021). Nəzəri hesablamalarda dilin inkişafının qarşılıqlı əlaqə xarakteri vurğulanır. Uşaqlar növbə götürmə, sual-cavab strukturları və cavab verən rəyi model-ləşdirən böyüklərlə mənalı mübadilələr vasitəsilə dialoq bacarıqlarını öyrənirlər. Yüksək keyfiyyətli erkən uşaqlıq mühitləri qəsdən uşaqları fikirlərini ifadə etməyə, problemləri həll etməyə və söhbətdə əməkdaşlıq etməyə dəvət edən dialoqik qarşılıqlı əlaqələri birləşdirir. Tədqiqatlar göstərir ki, pedaqoqlar və valideynlər məhsuldar suallardan istifadə etdikdə və

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

uşaqların cavablarını gücləndirdikdə, dialoq vərdişləri güclənir və uşaqların sosial-linqvistik inkişafı sürətlənir (Bəkirova, 2023; Gavrish, Bezsonova, 2022). İnkişaf baxımından məktəbəqədər uşaqlar sadə mübadilələrlə başlayırlar və tədricən mövzunu saxlamaq, cavablar hazırlamaq və başqalarının perspektivlərini nəzərə almaq kimi daha mürəkkəb dialoq xüsusiyyətləri əldə edirlər. Həmyaşıdların qarşılıqlı əlaqələri dialoqun formalaşması üçün xüsusilə zəngin kontekstlərdir, çünki uşaqlar oyun və birgə fəaliyyətlər zamanı mənaları, rolları və cavabları kortəbii şəkildə müzakirə edirlər. Kooperativ oyunlar və sosial oyunlar təkcə lüğət və hekayə bacarıqlarını inkişaf etdirmir, həm də danışıq qaydalarına hörməti artırır (Khanina, Li, 2021). Dialoq vərdişlərinin formalaşdırılmasına yönəlmiş pedaqoji metodlara dialoqlu oxu, problem həll etmə tapşırıqları, rol oyunları və strukturlaşdırılmış danışıq fəaliyyətləri daxildir. Bu cür fəaliyyətlər uşaqları suallar verməyə və cavablandırmağa, düşüncələrini əsaslandırmağa və fikirləri aydın ifadə etməyə təşviq edir. Təhsil mühitində dialoq söhbəti tənqidi düşüncəni inkişaf etdirir və uşaqlara danışıq strukturlarını mənimsəməyə kömək edir. Dialoqun sistematik şəkildə həvəsləndirilməsi həm də uşaqların özünə inamını və kommunikativ mübadilədə iştirak etmək istəyini artırır (Bəkirova, 2023; Taurina, Engele, 2018). Valideynlər və pedaqoqlar qarşılıqlı dialoqun təşkilində mühüm rol oynayırlar. Böyüklər üçün modelləşdirmə, açıq suallar və cavab verən dinləmə uşaqların özlərini ifadə etmək və kommunikativ risklər götürmək üçün təhlükəsiz hiss etdikləri mühit yaradır. Uşaqlara səriştəli danışıq tərəfdaşı kimi yanaşan qarşılıqlı əlaqələr təkcə dil bacarıqlarını deyil, həm də emosional və sosial bacarıqları inkişaf etdirir.

Faydalara baxmayaraq, bir çox uşaqlar zəngin danışıq girişi üçün məhdud imkanlar, qarşılıqlı əlaqədə böyüklərin üstünlüyü və ya strukturlaşdırılmış kommunikativ fəaliyyətlərin olmaması

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

səbəbindən dialoq inkişafında çətinliklərlə üzləşirlər. Dialoqa üstünlük verən məqsədyönlü təcrübələr, nitq və sosial qarşılıqlı əlaqə ilə mübarizə aparan uşaqlara fərdi dəstək ilə yanaşı, möhkəm dialoq vərdişlərini inkişaf etdirmək üçün lazımdır (Bəkirova, 2023).

Nəticə olaraq, məktəbəqədər yaşlı uşaqlarda dialoq vərdişlərinin formalaşması dil inkişafını, sosial səriştəni və idrak inkişafını dəstəkləyən erkən uşaqlıq inkişafının vacib aspektidir. Dialoq vərdişləri ən yaxşı şəkildə uşaqların böyüklər və həmyaşıdları ilə tez-tez, mənalı qarşılıqlı əlaqədə olduğu mühitlərdə formalaşır. Dialoq sualları, birgə problemlərin həlli və həssas böyüklərin modelləşdirilməsi kimi effektiv pedaqoji təcrübələr uşaqların qarşılıqlı nitqdə iştirak etmə qabiliyyətinə əhəmiyyətli dərəcədə kömək edir. Həm müəllimin rəhbərlik etdiyi, həm də həmyaşıdları ilə dialoq imkanları məktəbəqədər uşaqların ünsiyyət inamını və səriştəsini artırır. Dialoq vərdişlərinin formalaşmasını optimallaşdırmaq üçün erkən uşaqlıq dövründə pedaqoqlar və tərbiyəçilər davamlı və zəngin şifahi əlaqəni təşviq edən dəstəkləyici və interaktiv mühitlər yaratmalıdırlar.

## Ədəbiyyat

1. Bəkirova, U. B. K. (2023). Məktəbəqədər uşaqlara dialoq nitqinin öyrədilməsi üsulları. *Avropa Beynəlxalq Pedaqogika Jurnalı, 3*(04), 21–24.
2. Gavrish, N., Bezsonova, O. (2022). Erkən qrupların inkişaf mühitində böyüklər və uşaqların dialoqlu qarşılıqlı əlaqəsinin təşkili. *ScienceRise: Pedaqoji Təhsil, 3*(48), 23–27.

3. İmanova, P. (2024). Məktəbəqədər yaşlı uşaqlarda mədəniyyət mədəniyyətinin inkişafının nəzəri aspektləri. *Məktəbəqədər Təhsil və Tərbiyə, 91*(4), 45–50.
4. Khanina, N., Li, I. (2021). Yaşıdları ilə dialoq vasitəsilə böyük məktəbəqədər uşaqların nitqinin inkişafı. *Karaqanda Universitetinin Pedaqoji seriyasının bülleteni*.
5. Taurina, A., Engele, Z. (2018). Problem həlli vəziyyətlərində məktəbəqədər uşaqlar üçün dialoq nitqinin təşviqi. *Cəmiyyət. İnteqrasiya. Təhsil.*

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 56-58
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 56-58
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

**Qönçə Əliyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
https://orcid.org/0009-0006-9825-7913
qoncaa119@sabah.edu.az

# Rəqəmsal əks-əlaqə və adaptiv öyrənmə: təhsildə yeni yanaşmalar

***Açar sözlər:*** *rəqəmsal əks-əlaqə, adaptiv öyrənmə, fərdiləşdirilmiş təhsil, təhsil texnologiyaları*
***Keywords:*** *digital feedback, adaptive learning, personalized education, educational technology*

XXI əsrin təhsil sistemi rəqəmsallaşmanın geniş tətbiqi ilə yeni mərhələyə qədəm qoymuşdur. Rəqəmsal texnologiyalar yalnız dərs mexanizmini genişləndirmir, eyni zamanda tədris prosesini daha interaktiv, çevik və fərdiləşdirilmiş edir. Rəqəmsal əks-əlaqə və adaptiv öyrənmə yanaşmaları, şagirdlərin bilik səviyyələrinə uyğun tədris məzmununun verilməsi və dərhal cavablar vasitəsilə tələbin öyrənmə səmərəliliyinin artırılması baxımından mühüm yeniliklərdən sayılır. Belə yanaşmalar ənənəvi dərs modellərindən fərqli olaraq hər bir şagirdin öz tempinə uyğun təlim yolu yaratmağı hədəfləyir, bununla da təhsil nəticələrinin keyfiyyətini yüksəldir.

*1.Rəqəmsal əks-əlaqənin əsasları və təhsildə rolu*. Əks-əlaqə (feedback) öyrənmə prosesində ən güclü təsir mexanizmi hesab edilir. Ənənəvi pedaqoji yanaşmada müəllimin verdiyi rəy şagirdlərin göstəricilərinin qiymətləndirilməsinə yönəlir, lakin rəqəmsal mühitdə bu proses daha çevik və təbii olur. Mənbələr göstərir ki, dəstəkləyici və məqsədli əks-əlaqə şagirdlərə öz hədəflərini, mövcud səviyyələrini və gələcək addımlarını aydın

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

şəkildə anlamağa kömək edir. Effektiv əks-əlaqə şagirdlərin performansına dərhal verildikdə və konkret istiqamətlər təqdim etdikdə daha faydalı olur, əks halda, gecikmiş və ümumi rəyin effekti məhdud qalır.

Rəqəmsal əks-əlaqə isə platforma və proqramlar vasitəsilə avtomatlaşdırılmış şəkildə şagirdlərin cavabına uyğun dərhal qaytarılır. Bu yanaşma öyrənənin motivasiyasını artırır, çünki dərhal verilən rəy şagirdlərə səhvləri anında düzəltmək imkanı yaradır. Məsələn, onlayn testlərdə yanlış cavabdan sonra verilən izahlı əks-əlaqə şagirdlərin növbəti addımlarını məhsuldar şəkildə istiqamətləndirə bilər.

Bu tip rəylər yalnız cavabın düzgün və ya yanlış olduğunu göstərməklə kifayətlənmir, həmçinin izahlı formada hansı addımda səhv olunduğunu açıqlayır. Bu, tələbənin tənqidi təfəkkürünü və özünüqiymətləndirmə bacarıqlarını da inkişaf etdirir.

*2.Adaptiv öyrənmə texnologiyaları və onların tətbiqi.* Adaptiv öyrənmə yanaşması, tədris materiallarının şagirdlərin bilik səviyyəsinə, öyrənmə tempinə və ehtiyaclarına uyğun olaraq dinamik şəkildə tənzimlənməsinə nəzarət edən sistemdir. Bu yanaşma ənənəvi təlim modellərindən fərqli olaraq şagirdlərin cavabları əsasında davamlı olaraq tədris məzmununu fərdiləşdirir və təklif etdiyi məzmunu tənzimləyir. Ədəbiyyatlarda adaptiv sistemlərin əsas komponentləri – real - vaxtlı data analizi, alqoritmik düzəliş, şagirdlərin performansının ölçülməsi və şəxsi öyrənmə yolunun yaradılması kimi elementlər qeyd olunur. Məsələn, adaptiv sistemlər hər bir şagirdin bilik boşluqlarını müəyyən etməklə ona daha uyğun tapşırıqlar göndərir və növbəti dərs fəaliyyətini tənzimləyir.

Tədqiqatlar göstərir ki, adaptiv öyrənmə texnologiyaları tələbələrin öyrənmə iştirakını və nəticələrini əhəmiyyətli şəkildə

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 56-58
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 56-58
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

artırır, çünki bu sistemlər şagirdlərin zəif sahələrini hədəfləyir və onları motivasiya edən tapşırıqlar təklif edir.

*3.Rəqəmsal əks-əlaqə və adaptiv öyrənmənin sintezi.* Rəqəmsal əks-əlaqə və adaptiv öyrənmə yanaşmaları birləşdirildikdə təhsil prosesinin effektivliyi daha da artır. Bu sintez təklif etdiyi dərhal və şagirdlər mərkəzli rəy mexanizmi ilə öyrənməni daha interaktiv və dinamik edir. Ədəbiyyat bu iki yanaşmanın birgə tətbiqinin üstünlüklərini vurğulayır: şagirdlərin öyrənmə davranışları, özünü - idarəetmə bacarıqları və nəticələrində əhəmiyyətli müsbət dəyişikliklər müşahidə olunur.

*4.Praktik tətbiqlər və təhsil sistemində yeniliklər.* Müasir təhsil platformaları, o cümlədən onlayn kurslar, LMS sistemləri və Aİ - dəstəklənmiş öyrənmə mühitləri adaptiv metodologiyaları tətbiq edir və tədris prosesini optimallaşdırır. Real təcrübələr göstərir ki, bu sistemlər şagirdlərin dərs nəticələrini yaxşılaşdırır, qərar vermə prosesini asanlaşdırır və müəllimlər üçün əlavə analitik imkanlar təmin edir. Belə yanaşmalar həm məktəblərdə, həm də ali təhsil səviyyəsində tətbiq olunur və fərdi tədris ehtiyaclarını ödəməklə təhsil keyfiyyətini artırır.

Nəticə olaraq, rəqəmsal əks-əlaqə və adaptiv öyrənmə təhsil sistemində innovativ, şagirdmərkəzli və nəticəyönümlü yanaşmalar kimi artan əhəmiyyət kəsb edir. Ədəbiyyata əsasən, bu yanaşmalar şagirdlərin motivasiyasını artırır, özünüqiymətləndirmə bacarıqlarını gücləndirir və öyrənmə nəticələrini yaxşılaşdırır. Rəqəmsal texnologiyalar vasitəsilə dərhal verilən əks-əlaqə və adaptiv düzəliş mexanizmləri təhsili daha effektiv, şəffaf və şagirdlərin ehtiyaclarına uyğun edir.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

**Ху Цзяи**
Бакинский Славянский Университет
магистрант
https://orcid.org/0009-0005-3581-4340
19706125613@163.com

# Формы и методы работы социальных институтов общества (семья и средняя школа) с подростками негативного направления субкультуры

***Ключевые слова:*** *субкультуры, семья, средняя школа, подросток, методы*

***Açar sözlər:*** *subkulturalar, ailə, orta məktəb, yeniyetmə, metodlar*

***Keywords:*** *subcultures, family, high school, teenager, methods*

Тезис посвящен формам и методам работы семьи и средней школы с подростками, склоняющимися к негативной субкультуре. Подчеркивается ключевая роль этих социальных учреждений в формировании положительных ценностей подростков через общение, поддержку и совместное действие. Описываются индивидуальные беседы, кружки, интерактивные уроки и семейные мероприятия как эффективные способы предотвращения негативного влияния.

В современном мире подростки часто сталкиваются с различными субкультурами, и некоторые из них имеют негативные черты – например, пренебрежение правилам, агрессивное поведение или увлечение вредными привычками. Семья и средняя школа, как основные социальные учреждения, играют важную роль в работе с такими

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

подростками. Ниже рассматриваются формы и методы такой работы, основанные на простых наблюдениях и практических подходах (Райс, Долджин, 2010, с. 45).

Сначала о семье – это первый и важнейший пункт в жизни каждого подростка. Многие подростки начинают интересоваться негативной субкультурой из-за нехватки внимания родителей или плохих отношений в семье. Поэтому родители должны больше общаться с детьми: не только спрашивать о школе, но и слушать их мечты, проблемы и интересы. Например, если подросток говорит о друзьях, которые любят драки, родители не должны сразу ругать, а объяснить, почему это плохо, и поделиться своим опытом. Также совместные дела – такие как походы в парк, просмотр фильмов или подготовка еды – помогают укрепить отношения в семье. Когда подросток чувствует любовь и поддержку родителей, он реже склоняется к негативным группам.

Далее о средней школе. Школа – это место, где подростки проводят много времени, поэтому учителя и психологи должны активно работать с ними (Харланова, Черникова, Лукичева, и др., 2023, с. 7). Один из важных методов – индивидуальные беседы. Психолог или классный руководитель может поговорить с подростком в одиночку, узнать причины его интереса к негативной субкультуре и дать полезные советы. Также школы могут организовывать кружки или мероприятия, которые соответствуют интересам подростков. Например, если подросток увлекается музыкой, можно организовать музыкальный кружок; если ему нравится спорт – спортивные соревнования. Такие мероприятия помогают подросткам найти друзей с похожими положительными интересами и отвлекают их от негативных влияний. Кроме того, в классах можно проводить уроки о

нравственности, правилах поведения и опасностях негативных субкультур – но не в виде скучных лекций, а через игры, дискуссии или просмотр коротких фильмов.

Оба учреждения – семья и школа – должны работать вместе. Родители должны информировать учителей о проблемах подростка, а учителя – делиться своими наблюдениями с родителями. Например, если классный руководитель заметил, что подросток стал пропускать уроки и общаться с плохими друзьями, он должен сразу сообщить об этом родителям, и вместе они должны найти решение (Канашов, Трусова, 2021, с. 82). Без сотрудничества между семьей и школой работа с подростками, склоняющимися к негативной субкультуре, будет менее эффективной.

В целом, работа с такими подростками требует терпения, внимания и любви. Семья и школа должны использовать простые и понятные методы, основанные на общении и поддержке. Когда подросток чувствует, что его понимают и ценят, он сам захочет выбирать положительные пути в жизни.

## Литература

1. Харланова, Е.М., Черникова, Е.Г., Лукичева, Е.А. и др. (2023). Вовлеченность подростков цифрового поколения в субкультурные сообщества. *Мир науки. Педагогика и психология, 11*(5), 1–9.
2. Канашов, А.Е., Трусова, А.В. (2021). Роль факторов семейного воспитания в формировании интернет-зависимого поведения у подростков. *Национальный психологический журнал*, *2*, 76–87. DOI: 10.11621/npj.2021.0207.
3. Райс, Ф., Долджин, К. (2010). *Психология подросткового и юношеского возраста*. Питер. ISBN 978-5-49807-290-6.

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 62-64
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 62-64
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

**Aygül Məmmədli**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
https://orcid.org/0009-0006-8273-4279
aygulmammad06@gmail.com

# Ali təhsildə qiymətləndirmə ilə bağlı psixoloji problemlər: səbəblər və həll yolları

***Açar sözlər:*** *qiymətləndirmə, tələbə, ənənəvi imtahan, alternativ qiymətləndirmə, formativ qiymətləndirmə*
***Keywords:*** *assessment, student, traditional exams, alternative assessment, formative assessment*

Ali təhsildə qiymətləndirmə sistemi çox zaman tələbənin bilik və bacarığını ölçməkdən daha çox psixoloji təsir funksiyasını daşıyır. Tələbə imtahan və yoxlamaları şəxsi dəyərin göstəricisi kimi qəbul etdikdə, öyrənmə prosesi təhlükə və narahatlıq mənbəyinə çevrilir. Xüsusilə yüksək rəqabətli mühitdə qiymətin "uğur və ya uğursuzluq" kimi ikili çərçivədə təqdim olunması tələbənin koqnitiv diqqətini öyrənmədən uzaqlaşdırır və qorxuya yönəldir (Hsu, Goldsmith, 2021). Bu isə motivasiyanın azalmasına, özünəinamın zəifləməsinə və nəticə etibarilə akademik performansın aşağı düşməsinə gətirib çıxarır.

Ənənəvi imtahan yönlü qiymətləndirmədə səhv etmək cəzalandırılan hal kimi təqdim olunur və tələbə üçün risk faktoruna çevrilir. Bu şəraitdə öyrənən daha az təşəbbüskar olur, idrak çevikliyini itirir və məlumatı qısa müddətə yadda saxlama strategiyalarına üstünlük verir. Digər tərəfdən, qeyri-müəyyən meyarlar və nə gözlənildiyinin tam açıqlanmaması tələbələrdə narahatlıq səviyyəsini daha da artırır. Hsu və Goldsmith göstərir

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 62-64
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 62-64
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

ki, ali məktəb tələbələrinin imtahan stressində qeyri-şəffaflıq əsas həlledici amillərdən biridir (Hsu, Goldsmith, 2021).

Buna qarşı olaraq, alternativ qiymətləndirmə modelləri tələbəyə daha təhlükəsiz öyrənmə mühiti yaradır. Burada qiymətləndirmə yalnız nəticəyə deyil, inkişaf prosesinə yönəlir və səhv öyrənmənin normal hissəsi kimi qəbul olunur. Bu yanaşma tələbənin özünü dəyərli hiss etməsini və tədris prosesində aktiv iştirakını gücləndirir. Guha və Roy qeyd edir ki, əməkdaşlıq və davamlı əks-əlaqə tələbələrdə stressi əhəmiyyətli dərəcədə azaldır və motivasiyanın daxili qaynaqlarını aktivləşdirir (Guha, Roy, 2025).

Formativ qiymətləndirmənin tətbiqi, rubriklər, portfoliolar və layihə əsaslı tapşırıqlar tələbənin öz inkişafını müşahidə etməsinə imkan verir. Tələbə aldığı rəy vasitəsilə növbəti addımını bilir və öyrənmənin idarə oluna bilən bir proses olduğunu dərk edir. Bu zaman psixoloji yük tədricən azalır, çünki hər addımda düzəliş imkanı mövcuddur.

Qeyd edək ki, qiymətləndirmə siyasətində psixoloji təhlükəsizlik prinsipinin gücləndirilməsi ali təhsil sistemində stressin azaldılması üçün əsas şərtlərdən biridir. Bu çərçivədə qiymətləndirmə meyarlarının tələbələrə əvvəlcədən açıq şəkildə təqdim olunması qeyri-müəyyənliyi azaldır və narahatlıq reaksiyalarının azalmasına şərait yaradır. Qiymətləndirmə nə qədər şəffaf olarsa, tələbə prosesə daha asan uyğunlaşır və öz fəaliyyətinə daha real nəzarət edə bilir.

Digər mühüm istiqamət qiymətləndirmənin yalnız yekun nəticə ilə məhdudlaşdırılmaması, öyrənmə prosesini müşayiət edən formativ rəyin artırılmasıdır. Müntəzəm əks-əlaqə tələbəyə bilik boşluqlarını vaxtında müəyyən etməyə, səhvlərin psixoloji təzyiqə çevrilmədən düzəldilməsinə imkan verir. Bu halda qiymətləndirmə nəzarət vasitəsi yox, inkişaf üçün dəstək amili kimi qəbul olunur.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

Tapşırıqların semestr üzrə paylanması və layihə-əsaslı qiymətləndirmə modellərinin tətbiqi psixoloji yükün tək bir imtahan üzərində cəmlənməsinin qarşısını alır. Biliklərin real situasiyalarda tətbiqi tələbənin özünü daha kompetent hiss etməsinə səbəb olur və nəticə təqdimetmə zamanı gərginlik səviyyəsi azalır. Belə təşkil edilmiş qiymətləndirmə mühiti həm də sosial qarşılıqlı əlaqəni gücləndirir, tələbənin təklik və rəqabət təzyiqindən uzaqlaşmasına kömək edir.

Eyni zamanda, akademik mədəniyyətdə səhvin "uğursuzluq göstəricisi" kimi deyil, öyrənmə prosesinin təbii hissəsi kimi qəbul olunması vacibdir. Səhvlərə münasibətin yumşalması müdafiə davranışının azalmasına, təşəbbüskarlığın və idrak çevikliyinin artmasına şərait yaradır. Bu prinsiplərin tətbiqi nəticəsində tələbə qiymətləndirmə prosesini təhlükə deyil, inkişaf imkanlarının təqdim olunduğu konstruktiv bir sahə kimi qavramağa başlayır.

Bütün bu arqumentlər göstərir ki, qiymətləndirmə yalnız ölçmə vasitəsi deyil, tələbənin emosional rifahını və öyrənmə davranışını formalaşdıran güclü psixoloji mexanizmdir. Ənənəvi yanaşma qorxuya əsaslandığı halda, alternativ modellər öyrənməni daha insani və inkişaf yönlü bir prosesə çevirir. Ali təhsildə tələbə stressinin azaldılması üçün qiymətləndirmə sistemində psixoloji təhlükəsizlik, şəffaflıq və dəstək kimi prinsiplərin gücləndirilməsi vacibdir.

## Ədəbiyyat

1. Guha, & Roy. (2025). Benefits and Challenges of Alternative Assessment Methods in Higher Education. *International Journal of Social Impact, 10*(1), 115–123.
2. Hsu, J.L., & Goldsmith, G.R. (2021). *Instructor Strategies to Alleviate Stress and Anxiety among College and University STEM students*. CBE—Life Sciences Education.

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 65-70
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 65-70
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

**Aytən Mustafayeva**
Naxçıvan Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0009-3792-8017
ayten.mustafayeva.1997@gmail.com

# Musiqili-səhnə dramlarında görkəmli şəxsiyyətlərin obrazları

***Açar sözlər:*** *görkəmli şəxsiyyətlər, musiqili-səhnə əsərləri, bəstəkar, musiqi, janr*
***Keywords:*** *prominent figures, musical-stage works, composer, music, genre*

Azərbaycan mədəniyyətində tarixi obrazların musiqili təcəssümü qədim köklərə malikdir. Xalq dastanları, mərasim nəğmələri, qəhrəmanlıq havaları və epik muğam parçaları uzun illər ərzində xalqın yaddaşında yaşayan tarixi simaların bədii portretini yaratmışdır. Lakin tarixi şəxsiyyətlərin portretinin musiqidə təqdim olunması və bu ənənənin xüsusi kompozisiya prinsipi kimi formalaşması milli musiqi mədəniyyətində XX əsrin ilk onilliklərindən başlayaraq kök salmışdır. Bu dövr Azərbaycan professional bəstəkarlıq məktəbinin yarandığı və klassik musiqi formalarının milli zəmində bərqərar olduğu mərhələdir. Bu zaman yeni bədii forma axtarışına çıxan bəstəkarlar xalqın tarixi və mədəni irsində mühüm yer tutan şəxsiyyətlərə üz tutmağa başladılar.

Azərbaycan bəstəkarları üçün doğma vətənin tarixi şəxsiyyətlərinin musiqili təfsirlərdə canlandırılması mühüm əhəmiyyətli vəzifələrdən biri kimi müəyyən olunmuşdur. Bəstəkarlarımız dahi vətən övladlarının portretini özünəməxsus yaradıcılıq dəst-xətti ilə yaratmışlar.

Azərbaycan bəstəkarlıq məktəbinin nümayəndələri tarixi, siyasi, ədəbiyyat, incəsənət xadimlərinin musiqili obrazını dərin

məzmunlu əsərlərdə təcəssüm etdirmişlər. Müxtəlif janr və forma xüsusiyyətləri daşıyan bu əsərlərdə intellektual bəstəkar təxəyyülü zəngin və çoxtərəfli musiqili obrazlar təcəssüm etdirməyə imkan yaratmışdır. Bəstəkarlarımızın yaratdığı musiqili obrazlar həqiqi mənada, təsvir olunan şəxsiyyəti hərtərəfli canlandırır, onun tarixdə əhəmiyyətini vuğrulayır. Bu mövqedən çıxış etmək isə Azərbaycan bəstəkarlarının özünəməxsus yaradıcılıq yolu, bəstəkarlıq üslubunun unikallığını diqqətə çatdırır.

Azərbaycan musiqisində tarixi şəxsiyyətlərin portretinin yaradılması ənənəsinin təşəkkülü Üzeyir Hacıbəylinin adı ilə ayrılmaz şəkildə bağlıdır. O, Azərbaycan opera sənətinin banisi olmaqla yanaşı, musiqidə tarixi simaların bədii təcəssümünü təqdim edən ilk bəstəkar idi. Bəstəkar bu istiqamətdə əvvəlcə müxtəlif məzmunlu musiqili-səhnə dramlarında çıxış etmişdir. Ü.Hacıbəylinin muğam-operalarında təsvir olunan tarixi şəxsiyyətlər arasında diqqəti cəlb edən qəhrəman "Şah Abbas və Xurşid Banu" operasından Şah Abbasdır. Məlum olduğu kimi, Şah Abbas tarixi şəxsiyyətdir. Səfəvi imperiyasının V şahı olan Şah Abbas 1571-1629-cu illərdə yaşamışdır. Onun Azərbaycan tarixində olduqca əhəmiyyətli yeri vardır. "Şah Abbas və Xurşid Banu" operasında tarixi şəxsiyyət tam mənası ilə canlandırılmayıb. Əsərin qəhrəmanının obrazında Şah Abbasın tarixi qəhrəmanlıqları ifadə olunub. Opera Şah Abbas haqqında xalq arasında geniş yayılan nağılların motivləri əsasında bəstələnmişdir. Lakin bu heç də tarixi şəxsiyyətlərin musiqili təfsirdə canlandırılması ənənəsinə zidd deyildir. Çünki Azərbaycan tarixində bu ünvanlı şəxsiyyət yalnız Səfəvi hökmdarı olmuşdur. Bu da onu söyləməyə əsas verir ki, nağılda başqa bir Abbasdan deyil, məhz Şah Abbasdan söhbət gedir və Ü.Hacıbəyli özü tərəfindən yazılmış librettoda Şah Abbası əsas obraz kimi təqdim edən xalq nağıllarına müraciət edir. Məlum olduğu kimi,

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 65-70
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 65-70
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

"Koroğlu" sadəcə Ü.Hacıbəylinin yaradıcılığının zirvəsi deyil, Azərbaycan opera sənətinin nadir incilərindən biridir. 1937-ci ildə ərsəyə gələn bu əsərdə Ü.Hacıbəyli illəri əhatə edən yaradıcılıq axtarışlarının nəticəsini ümumiləşdirmişdir. O, yazdığı əsərlərdə formalaşdırdığı yaradıcılıq üslubunun nailiyyətlərini milli musiqinin tədqiqi nəticəsində əldə etdiyi elmi qənaətlərlə ümumiləşdirərək bu operanı yaratmışdır. Təsadüfi deyil ki, bəstəkar bu haqda yazır: "Azərbaycan xalq musiqisinin əsaslarını öyrənmək sahəsindəki işimin, bir bəstəkar olaraq, mənim üçün əməli əhəmiyyəti o oldu ki, mən "Koroğlu" operasını yazdım."

"Koroğlu" operasının qəhrəmanının tarixi şəxsiyyət olub-olmamağı haqqında mübahisəli fikirlər mövcuddur. Əsl adının Rövşən olduğu düşünülən Koroğlu XVI-XVII əsrlərdə Türkiyə və Azərbaycanda geniş yayılmış Cəlalilər hərəkatının rəhbərlərindən biridir. Belə də qəbul edilir ki, Koroğlu həmin dövrdə Cəlalilər hərəkatı qəhrəmanlarına verilmiş ümumiləşmiş addır. Azərbaycan xalqının qəhrəmanlıq salnaməsində xüsusi yer tutan Koroğlu obrazı əsrlər boyunca xalq şüurunda azadlıq, ədalət və mübarizlik simvolu kimi formalaşmışdır. Haqqında olan folklor mənbələrində Koroğlu yalnız bir tarixi şəxs kimi deyil, həm də bütöv bir dövrün ideallarını özündə cəmləşdirən epik qəhrəman olaraq təqdim edilir.

XX əsrin ilk onilliyində digər görkəmli bəstəkar M.Maqomayev "Şah İsmayıl" operasında XVI əsrdə yaranmış Səfəvilər imperiyasının ilk hökmdarı Şah İsmayıl Xətai haqqında xalq arasında yayılan dastan variantlarının biri əsasında eyniadlı opera yazır. Bu əsərin süjeti Şah İsmayılın siyasi fəaliyyəti, mübarizəsi, hakimiyyətə gəlmək yolunda verdiyi qurbanları və nəhayət, bütün Şərqdə ən böyük imperiyalardan biri olan dövləti yaratmağı kimi tarixi hadisələri əhatə etmir. Lakin nəzərə alınsa ki, xalq tərəfindən geniş müzakirələr obyekti olmuş Xətai

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 65-70
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 65-70
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

haqqında olduqca çox dastan və əfsanələr yaranmışdır və səyyar fəaliyyət göstərən aşıqlar onun obrazını müxtəlif məzmunlu aşıq yaradıcılığı nümunələri ilə vəsf etmişlər, o zaman söyləmək olar ki, opera həqiqətən də Şah İsmayılın bədii obrazını canlandırır. "Şah İsmayıl" operasının baş qəhrəmanının mübarizliyi, qorxmazlığı, istənilən imtahandan üzüağ çıxmağı, döyüşkən ruhu Sah İsmayıl Xətainin şəxsiyyəti üçün səciyyəvi xüsusiyyətlərdir. Məhz bu da görkəmli sərkərdə-hökmdarın bədii portretinin musiqili ifadəyə çevrilməsinə imkan yaradır. Operada Şah İsmayıl obrazı bir qədər rəmzi məna kəsb edir, desək, yanılmarıq. Bəstəkar onun simasında zülmə, qəddarlığa qarşı mübarizliyi, ədalətin bərqərar olunmağında dözümlülüyü ifadə edir. Bu, tarixi şəxsiyyətin ictimai-siyasi fəaliyyətinin əhəmiyyətinin rəmz olaraq bədii sənəti nümunəsində təsviri problemini həll edir. Bəstəkar əsərdə baş qəhrəmanının simasında humanist ideallar ifadə edib. S.Qasımova bu haqda yazır: "Librettonun əsasına qoyulmuş xalq əfsanəsi operada müasir humanist təzahürünü tapmışdır. Şahların zülmkarlığını, müstəbidliyini və qəddarlığını: ədalət uğrunda, xeyrin, sədaqətin və məhəbbətin təntənəsi uğrunda mübarizəni göstərtmək əsərin qayəsini təşkil edir."

"Nizami" operası klassik Azərbaycan operalarının formalarına uyğun olaraq 5 pərdə 6 şəkildən ibarətdir. Forma cəhətdən klassik xüsusiyyətlər daşıyan operada solo nömrələr – ariya və ariozalar, xor nömrələri, simfonik parçalar, ansambl və rəqslər milli musiqi nümunələri ilə zənginləşir. Bu, dramaturji inkişafda daha poetik xəttin meydana gəlməyinə səbəb olur.

"Nizami" operasında hadisələr qədim şəhər Gəncədə cərəyan edir. Düzdür romanda ifadə olunan ictimai motivlər librettoda öz əksini tampasa da və dövrün geniş mühakimələr doğuran siyasi hadisələri saray çaxnaşmaları səviyyəsində təqdim edilsə də, tarixi şəxsiyyətin canlı obrazının təsvirində ilk

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 65-70
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 65-70
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

mühüm iş kimi əsərin olduqca böyük əhəmiyyəti var. Operanın əhəmiyyətini diqqətə çatdıran digər mühüm cəhət isə milli opera sənətində tarixi-romantik məzmunlu musiqili səhnə dramlarının inkişafında xüsusi rol oynamasıdır.

Məlum olduğu kimi, XVIII əsrdə yaşayan Molla Pənah Vaqif Qarabağ xanının vəziri olmuş və İran şahı Qacar Azərbaycana yürüş etdiyi bir dövrdə taleyüklü tarixi hadisələrin iştirakçısına çevrilmişdir. Bu cəhətin vurğulandığı dramın məzmununu olduğu kimi, musiqili-səhnə əsərində ifadə etməyə çalışan R.Mustafayev Vaqifi ictimai-siyasi xadim, vətənin taleyindən narahat görkəmli şair kimi təqdim edir. Bununla yanaşı, onun şəxsi taleyi də faciəlidir. Sevdiyi qadın Xuramanın xəyanəti onun onsuz da narahat duyğularını daha çox qamçılayır. Bununla yanaşı, şairin lirik obrazı bütün əsər boyu öz əhəmiyyətini qoruyub saxlayır ki, onun lirik ariya ilə təqdim olunmağı da bu baxımdan diqqətəlayiqdir. Bundan əlavə, obrazın ifadəsində leytmotiv xarakterli iki mövzunun da əhəmiyyətini vurğulamaq lazımdır ki, bu mövzular şairin obrazının inkişafının çoxyönlülüyünü təmin edir. Baş qəhrəmanın obrazı solo nömrələrdə – ariya, ariozo, leytintonasiya kompleksləri ilə daha qabarıq şəkildə özünü təsdiq edir. Bütün nömrələri baş qəhrəmanla əlaqələndirməyə çalışan bəstəkar onu operanın ən mərkəzi obrazı kimi görür. Bu haqda İ.Məhərrəmova yazır: "Vaqif" operasında ənənəvi janr əlaqələri diqqətəlayiqdir. Operanın kompozisiyasının və dramaturgiyanın bir çox xüsusiyyətləri bir-biri ilə uzlaşdırılır. Bəstəkar operadakı bir çox epizodları, bütün müxtəlif planlı ariyaları və ansambl səhnələrini şairin obrazı ilə bağlamağa çalışmışdır.

"Vaqif" operasında təsvir olunan M.P.Vaqif yeganə tarixi obraz deyil. Burada Şah Qacar da tarixi şəxsiyyət olmuşdur. Onun da obrazının musiqili-səhnə dramında təsviri "Vaqif"i

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

milli opera sənətində tarixi şəxsiyyətlərin daha çox yer tutduğu opera kimi qiymətləndirməyə əsas verir.

Beləliklə, milli opera sənətində yeni və parlaq əsərlərdən biri olan "Vaqif" operasında baş qəhrəmanın simasında Azərbaycan tarixinin əhəmiyyətli səhifələrinə də sayəhət edilir.

Bəstəkar A.Əlizadənin "Babək" baleti Azərbaycan musiqi mədəniyyətində mühüm əhəmiyyətli əsərlərdən biridir. Bu ilk növbədə, tarixi-milli ideyanın bədii təcəssümündə özünü göstərir. "Babək" baleti IX əsrdə yaşamış, azadlıq və ədalət uğrunda mübarizənin rəmzinə çevrilmiş Babək Xürrəminin obrazına həsr olunmuşdur. Aqşin Əlizadə bu obraz vasitəsilə xalqın azadlıq ruhunu, zülmə qarşı etirazını və milli kimliyini musiqi dili ilə ifadə etmişdir. Mövzu seçimi, musiqi-dramaturji həll baxımından milli balet sənətimizin inkişafında xüsusi yer tutan "Babək" baletində bəstəkar klassik balet janrının qanunlarını qorumaqla yanaşı, Azərbaycan xalq musiqisinin intonasiyalarından, ritmlərindən və lad xüsusiyyətlərindən ustalıqla istifadə etmişdir. Nəticədə, musiqi həm milli koloriti ilə seçilir, həm də dramatik gərginliyi və obrazların daxili aləmini dolğun şəkildə açır.

Tarixi şəxsiyyət olan Babəkin musiqili obrazının təsvirində bəstəkar ifadə vasitələrindən, musiqi dili elementlərindən məharətlə istifadə nəticəsində milli balet sənətimiz üçün ilk nümunələrdən birini yaratmışdır. A.Əlizadə baletdə Xürrəmilər hərəkarının rəhbəri, Azərbaycan tarixində əhəmiyyətli iz buraxan tarixi şəxsiyyətin obrazında milli hissləri, xalqın azadlıq ideyasını ifadə etməklə yanaşı, qəhrəmanın mənəvi dünyasının təlatümlərini də ön plana çıxarmağa çalışmışdır.

Ümumiyyətlə, bütün qeyd olunanlardan aydın olur ki, Azərbaycan bəstəkarlarının musiqili-səhnə dramlarında görkəmli şəxsiyyətlərin təsviri milli musiqidə polifunksionallığı təsdiqləyən mühüm amillərdən biri kimi diqqət cəlb edir.

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 71-73
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 71-73
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

**Нурлана Кулиева**
Бакинский Славянский Университет
магистрант
https://orcid.org/0009-0006-5185-9423
nurlana.quliyeva.03@mail.ru

# Внедрение принципов гуманизма в современную образовательную практику

***Ключевые слова:*** *гуманизм, гуманизация образования, образовательная практика, личностно-ориентированный подход, педагогическое взаимодействие*

***Açar sözlər:*** *humanizm, təhsilin humanistləşdirilməsi, təhsil təcrübəsi, tələbə mərkəzli yanaşma, pedaqoji qarşılıqlı əlaqə*

***Keywords:*** *humanism, humanization of education, educational practice, student-centered approach, pedagogical interaction*

В тезисе рассматривается теоретические и практические аспекты реализации принципов гуманизма в современной образовательной практике. Гуманистический подход анализируется как ценностная основа педагогической деятельности, направленной на развитие личности обучающегося, учёт его индивидуальных возможностей и образовательных потребностей. Особое внимание уделяется роли гуманизации образования в создании благоприятной образовательной среды, формировании положительного эмоционального климата и обеспечении успешной социальной адаптации обучающихся.

Гуманизм как философско-педагогическое направление занимает важное место в развитии современной системы образования. Он основывается на признании человека

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 71-73
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 71-73
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

высшей ценностью и предполагает ориентацию образовательного процесса на развитие личности обучающегося, его духовных, интеллектуальных и социальных качеств. В условиях модернизации образования принципы гуманизма приобретают особую актуальность, поскольку современное общество предъявляет высокие требования к уровню самостоятельности, ответственности и социальной зрелости личности.

Реализация принципов гуманизма в образовательной практике предполагает переосмысление роли педагога и обучающегося в педагогическом процессе. Обучающийся рассматривается как активный субъект образовательной деятельности, обладающий индивидуальными потребностями, интересами и возможностями. Педагог, в свою очередь, выступает не только источником знаний, но и наставником, организатором и партнёром в процессе обучения и воспитания.

Одним из ключевых условий внедрения гуманистического подхода является переход от авторитарных моделей обучения к личностно-ориентированным и деятельностным формам организации учебного процесса. Использование методов сотрудничества, диалога и активного взаимодействия способствует повышению учебной мотивации, развитию критического мышления и формированию устойчивого интереса к обучению.

Важную роль в реализации принципов гуманизма играет создание психологически комфортной и безопасной образовательной среды. Благоприятный эмоционально-психологический климат способствует формированию у обучающихся чувства уверенности в собственных силах, развитию положительной самооценки и готовности к самореализации.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

Гуманизация образовательной практики предполагает также учёт индивидуальных, возрастных и психофизических особенностей обучающихся. Это особенно важно в условиях инклюзивного и специального образования, где педагогическая деятельность направлена не только на усвоение учебного материала, но и на коррекцию нарушений развития, компенсацию ограниченных возможностей и успешную социальную адаптацию обучающихся.

Реализация принципов гуманизма способствует формированию у обучающихся гуманистических ценностей, толерантности, уважительного отношения к окружающим и ответственности за результаты собственной деятельности. В результате образовательный процесс становится средством не только передачи знаний, но и формирования социально значимых качеств личности.

Таким образом, внедрение принципов гуманизма в современную образовательную практику является необходимым условием повышения качества образования и формирования гармонично развитой личности, способной к активному участию в общественной жизни и профессиональной деятельности.

**Nigar İsmayıllı**
Naxçıvan Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0007-4186-1148
nigarismayilli@gmail.com

# F.Şopen və Polşa musiqi folkloru

***Açar sözlər:*** *folklor, mazurka, Şopen, polonez, musiqi*
***Keywords:*** *folklore, mazurka, Chopin, polonaise, music*

F.Şopen musiqi tarixində fortepiano sənətinin ən parlaq simalarından biri olmaqla yanaşı, həmçinin, musiqisində Polşa milli ənənələrini böyük ustalıqla əks etdirən bəstəkarlardan biri kimi tanınır. Bəstəkar doğma vətəni Polşadan uzaqda yaşasa da, əsərlərində daima doğma xalqının musiqi dilində danışmış, öz xalqının musiqi ruhunu yaşatmışdır. Şopen xalqına, vətəninə, onun mədəniyyəti, incəsənəti və musiqisinə sonsuz məhəbbət bəsləmişdir. Təbii ki, Şopenin yaradıcılığının əsas mövzusu vətən mövzusu olmuşdur. Şopenin iyirmi yaşından yad ölkədə yaşamağa məcbur olması, ondan sonra iyirmi ilə yaxın müddətdə ayağının bir dəfə də olsun Polşa torpağına dəyməməsi onun vətəni ilə bağlı hər şeyə romantik və xəyalpərəst münasibətini istər-istəməz gücləndirmişdir. Polşa obrazı - onun əzəmətli keçmişinin lövhələri, milli ədəbiyyatın təsviri, müasir Polşa həyatı, xalq rəqsləri və mahnılarının sədaları - bütün bunlar Şopenin yaradıcılığında qırmızı xətlə keçir. Belə ki, onun musiqisi həm Polşa xalqının keçmişini, həm də o dövrdəki azadlıq həsrətini təcəssüm etdirir. Məhz onun əsərləri vasitəsilə Polşa musiqi mədəniyyəti dünya musiqi arenasında tanınmış və dəyərləndirilmişdir. Demək olar ki, onun bütün yaradıcılığı yalnız fortepiano üçün yazılmış əsərlərdən ibarətdir və bu

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 74-76
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 74-76
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

əsərlərdə Polşa xalq musiqisinin melodik, ritmik və emosional xüsusiyyətləri özünü hərtərəfli şəkildə əks etdirir. Bunu bəstəkarın yazdığı müxtəlif janrlı əsərlərdə aydın görmək olar. Sadəliyi və daşıdığı duyğusu ilə, aksentli ritmi, rəqs xarakterli quruluşu, emosional harmonik dili ilə Şopenin melodiyaları tez-tez Polşa xalq nəğmələrinə bənzədilir. Onun musiqisindəki xəlqilik haqqında Şopenin fortepiano yaradıcılığının tədqiqatçısı A.Alekseyev yazmışdır ki, "Onun musiqisi doğma yurdun mənəvi mədəniyyətinin ifadəsinin dolğunluğu və qüdrəti ilə heyrətləndirməkdən vaz keçmədiyi xalq incəsənətinin aydın təzahürlərindən biridir. O, sözün tam mənasında Polşanın xalq şairidir". Bu sitat Şopen yaradıcılığının milli səciyyəsini, öz əsərlərində doğma yurdunun mədəniyyətinin dərindən təzahürünü və onun həqiqətən milli bəstəkar olduğunu təsdiqləyir.

Musiqi folkloru Frederik Şopenin yaradıcılığının ayrılmaz hissəsidir, xüsusilə, onun Polşa xalq rəqslərinin ritm və ahənglərini əks etdirən mazurka və polonezlərində bu təsir aydın nəzərə çarpır. Onun mazurka və polonezləri xalq rəqsləri və melodiyalarının ruhunu çatdıran ən gözəl nümunələrdir. Mazurka və polonezlər onlarda milli-xalq elementlərinin aydın təcəssümü ilə seçilir. Bu əsərlərdəki musiqi obrazları bizə Polşa mədəniyyətini, onun ehtirasını və zərifliyini hiss etməyə kömək edir. Bu xəlqi əsərlərdə xalqın "qəlbi", düşüncə və hissləri, məişət və qanunları, doğma yerlərin gözəlliyinə olan məhəbbəti əks olunur. Şopenin milli köklərlə bağlılığı onun mazurkalarında daha aydın şəkildə özünü büruzə verir. Mazurka Polşanın milli xalq mahnı-rəqs janrı olaraq adı yarandığı yerin, Mazoviya bölgəsinin adı ilə bağlıdır. Bu rəqsdə improvizasiyalılıq hökmranlıq edir, o, alovlu, temperamentli ritmə malik olur, kəskin aksentlərlə verilir. Şopenin mazurkaları kənd musiqisinin bir növ şəhər səhnəsindəki təcəssümüdür. Şopenin mazurkaları Polşa kəndlilərinin ənənəvi xalq rəqslərinə əsaslanır. O, bu janr

vasitəsilə xalq melodiyalarını professional musiqi dilində təqdim etmiş, onu yüksək bədii ifadə vasitələrilə zənginləşdirmişdir. Bəstəkarın mazurkalarındakı qeyri-bərabər ritm, aksentlər və improvizasiyalılıq məhz milli ənənələrin birbaşa təcəssümüdür. Şopenin 50-dən artıq mazurkası Polşa xalq rəqs janrının əsas bədii ifadə nümunəsidir.

Bu janr kübar ənənələrini təmsil etsə də, Şopen bu janra vətənpərvərlik və qəhrəmanlıq ruhu aşılamışdır. Xüsusilə, bəstəkarın bu mənada "Qəhrəmanlıq polonezi" daha diqqətəlayiqdir. Bu əsər Polşa xalqının azadlıq arzusunu simvolizə edir. Milli ruhda yazılmış bu polonezdə fortepiano səslənməsi son dərəcə güclü olaraq orkestral səslənməyə yüksəlmişdir.

Ümumiyyətlə, Şopen fortepiano musiqisinin hansı janrına müraciət edirsə etsin, biz hər yerdə Polşa musiqi folklorunun əks-sədalarını eşidə bilərik. Bəstəkar Polşa mahnı və rəqsinin intonasiyalarına çox həssaslıqla yanaşırdı.

Şopenin xalq musiqisindən ilham alaraq yazdığı əsərlərə "Polşa temasına fantaziya", "Rondo a la krakowiak" əsərlərini də misal göstərmək olar. Bu virtuoz pyeslərdən ibarət əsərlər tematik materialın orjinallığı, milli özünəməxsusluğu ilə seçilir.

Göründüyü kimi, Şopenin yaradıcılığı folklor motivlərilə son dərəcə zəngin olmuş və milli musiqi elementlərini yüksək ustalıqla klassik formalarla birləşdirilməsi ilə fərqlənir. Polşa musiqi folkloru onun orijinal musiqi üslubunu təyin etmişdir.

F.Şopen Polşa musiqi folklorunu dünya musiqi mədəniyyətinə tanıtmış, xalq musiqisinin estetik dəyərlərini yeni səviyyəyə yüksəltmişdir. Belə ki, Vətəninə bütün qəlbi ilə bağlı olan Şopen doğma Polşaya olan məhəbbətini musiqisində yaşatmışdır.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

**Nabat Abdullayeva**
Sabunçu rayonu, N.Rzayev adına 169 saylı orta məktəb
https://orcid.org/0009-0004-9681-0709
nabat1abdullayeva@gmail.com

# Azərbaycan toponimlərinin dil mənsubiyyəti

***Açar sözlər:*** *toponim, türk mənşəli toponimlər, alınma mənşəli toponimlər*
***Keywords:*** *toponym, toponyms of Turkish origin, borrowed toponyms*

Dilin lüğət tərkibinin mühüm hissəsini təşkil edən onomastik leksikanın, xüsusilə toponimlərin araşdırılması, tədqiq olunması xalqların tarixi keçmişinin, başqa mədəniyyətlərlə təmasının öyrənilməsi baxımından müstəsna əhəmiyyətə malikdir. Son onilliklərdə Azərbaycan dili onomastikasının dilçilik baxımından öyrənilməsinə maraq daha da artmışdır (Sadıqova, 2017; Kərimova, 2016).

Xüsusi adların, o cümlədən toponimlərin araşdırılması ilə əlaqədar fərqli yanaşma və istiqamətlərin meydana gəlməsi, bu sahə ilə bağlı müxtəlif tədqiqat metodlarının tətbiq edilməsi mövcud problemlərin aradan qaldırılması istiqamətində görülən işlərdəndir. Tezisdə toponimlərin yaranmasına təsir göstərən sosial-linqvistik amillərə, ilk öncə, müəyyən bir ərazidə yaşayan əhalinin etnik tərkibi ilə bağlı məsələlərə, bu ərazidə hansı tarixi, mədəni, sosial proseslərin baş verməsinə nəzər salınmış, bu proseslər nəticəsində toponimlərin dil mənsubiyyəti araşdırılmışdır.

V.Əliyev qeyd edirdi ki: "Azərbaycan dilinin və tarixinin qədim dövrlərindən xəbər verən onomastik vahidlər hansı vaxtda, hansı ictimai-siyasi quruluşda yaranırsa yaransın,

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

konkret dildə yaranır və həmin dilin qrammatik qanunları çərçivəsində mövcud olur" (Əliyev, 1998). Toponimlər hər hansı bir etnik qrupun, xalqın həyatının mədəni və fəlsəfi qavrayışının vacib hissəsidir, çünki bu adlar sosial və tarixi təcrübəni – ümumbəşəri və milli təcrübəni birləşdirir, mədəni məlumatları özündə saxlayır və əks etdirir, yaşadır. Toponimlərin linqvistik baxımdan dil mənsubiyyətinə görə araşdırılmasında müxtəlif etnik qrupa mənsubiyyəti də daxildir. Konkret bir ərazidə tarixən ümumi dil, mədəni-psixoloji mühit kimi ortaq dəyərlərə malik insanların sabit toplusu toponimlərin semantik xüsusiyyətlərinin formalaşmasına da öz təsirini göstərir. Bu baxımdan Azərbaycanın hər bir bölgəsində qeydə alınmış onomastik vahidlərin xüsusi qolunu təşkil edən coğrafi adların – toponimlərin tədqiqata cəlb edilməsi, araşdırılması məxsusi elmi əhəmiyyət kəsb edir.

Toponimlərin tədqiqi ilə bağlı fərqli yanaşma və istiqamətlərin meydana çıxması, bu sahədə müxtəlif tədqiqat metodlarının tətbiqi mövcud problemlərin aradan qaldırılması yönündə atılan addımlardan hesab oluna bilər. Təəssüf ki, hələ də toponimlərin şərhini çətinləşdirən bir çox problemlər, toponimlərin qaynaqlarının müəyyənləşdirilməsi ilə bağlı mübahisəli məsələlər mövcuddur. Bunlardan biri də toponimlərin dil mənsubiyyətinə görə dəqiq təsnifi problemidir. Toponimlər onların ifadə etdikləri adın aid olduğu konkret ərazidə yaşayan ayrı-ayrı etnoslar, qəbilə və tayfalar haqqında informasiyanın əsas daşıyıcılarındandır. Respublikamızın ərazisindəki toponimlər də bu ərazidə yaşamış etnoslar barədə qiymətli və təkzibolunmaz məlumatları özündə saxlayır. Bu ərazilərin ən qədim dövrlərdən məskunlaşmasını ifadə edən, burada yaşamış etnosların tarixindən xəbər verən etnonim əsaslı adlar respublikamızın bütün bölgələrində vardır.

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

Azərbaycan toponimlərinin dil mənsubiyyətinə görə təsnifi bu söz qrupunun böyük qisminin türk mənşəli, bir qisminin ərəb-fars mənşəli, müəyyən bir qisminin Qafqaz mənşəli olmasını müəyyən edir. Lakin bu təsnif aparılarkən xeyli miqdarda mübahisəli, problematik məsələlər meydana çıxır. Bu problemlərin həllini tapması üçün toponimlərin qeydiyyata alınması, müxtəlif formalaşma modelləri və toponimik vahidlərin struktur xüsusiyyətləri sistemli şəkildə tədqiqata cəlb edilməlidir. Toponimləri linqvistik hadisə kimi araşdırmaq, onların tipoloji baxımdan tədqiqatını aparmaq, toponimika problemlərini öyrənmək, eyni zamanda, toponimlərin tarixi inkişafını nəzərdən keçirmək, toponimləri dünyanın dil mənzərəsinin tərkib hissəsi kimi öyrənmək, toponimləri regional baza məlumatlarının formalaşması üçün resurs kimi araşdırmaq, toponimləri söz əmələ gətirmə imkanları baxımından tədqiq etmək və digər bu kimi məsələlər müasir dövrdə aktuallığı ilə diqqət çəkən problemlərdəndir. Onların tədqiq olunması fərqli və yeni yanaşma və üsulların tətbiqi zərurətini meydana çıxarır.

## Ədəbiyyat

1. Əliyev, V. (1998). *Azərbaycan toponimiyası*. ADPU.
2. Kərimova, İ. (2016). *Azərbaycan onomalogiyasının əsasları*. ADPU.
3. Sadıqova, S. (2017). *Müasir Azərbaycan dili: onomalogiya məsələləri*. ADPU.

*Elm və Təhsilin Əsasları* **XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 80-84**
*Fundamentals of Science and Education* **XVIII International Scientific Conference, 05 february 2026 / 80-84**
**https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026**

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Həsən Əliyev**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0002-3217-3654
hesen.cahangir@gmail.com

## Qapalı zədələnmələr və bu hallarda ilk tibbi yardım

***Açar sözlər:*** *zərbə dalğası, tibbi yardım, yaralanma, zədələnmə, qanaxma, sıniqlar, çıxıqlar*
***Keywords:*** *blast wave, medikal aid, injiri, trauma, bleeding, fractures, dislocations*

*Qapalı zədələnmələr* – bu zədələnmələr zamanı dərinin tamlığı pozulmur. Qapalı zədələnmələrə aiddir: əzilmələr, gərilmələr, silkələnmələr, sarsılmalar, sıxılma, sümük sınıqları və çıxıqları, travmatik şok və s. Qapalı zədələnmələr mexaniki təsir nəticəsində baş verir. Bu zədələnmələr zamanı dərhal həmin nahiyyədə ağrı hissi yaranır, funksiyası pozulur, qansızma, şişkinlik yaranır, hərəkət məhdudlaşır və ya heç olmur. Əzələlərin zədələnməsi əzilmə və cırılma ilə özünü göstərir. Bu zaman onların tamlığı pozulmur. Ən çox dəri və dərialtı toxumaların zədələnməsi və sümüküstlüyünün əzilmələri rast gəlinir. Əsas əlamətləri zədə yerində ağrı və şişkinlikdir. Ağrı zədədən sonra azalır, şişkinlik isə 2-3 gündən sonra bilinir. Şişkinlik xırda damarlardan qanaxma nəticəsində yaranır, əvvəlcə qansızma, sonra isə hematoma yaranır. İri damarlardan qanaxma olduqda qan laxtası magestral damarları sıxa bilər və bunun nəticəsində ətrafın funksiyası pozulur. Buna görə də zədə

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

nahiyyəsinə soyuq kompres qoyulur, tam sakitlik verilir, sıxıcı sarğı qoyulur.

Əzilmə yumşaq toxumaların dərinin tamlığı pozulmadan qısamüddətli xarici təsir nəticəsində zədələnməsidir. Əzilmənin ağırlığı zərbənin gücündən, zədələnmənin lokalizasiyasından asılıdır. Çıxıqlar – sümüklərin oynaq başının oynaq kapsulu və bağının qırılması ilə müşayiət olunan oynaq çuxurundan tam çıxmasıdır. Travmatik çıxıqlar təxirəsalınmaz yardım tələb edən zədələnmələrə aiddir. Vaxtında düzgün ilk yardım göstərilsə, sonrakı müalicədən sonra heç bir dəyişiklik olmur. Çıxıq köhnəldikdə isə zədələnmiş oynaqda çapıq əmələ gəlir və çıxığı düzəltmək üçün çətin cərrahi əməliyyat tələb olunur. Çıxıqlar düzünə olmayan zədələnmələr nəticəsində yaranır. Bütün çıxıqlar üçün ümumi əlamət travma anında ağrı, oynağın deformasiyası, ətrafın fizioloji oxunun pozulması, oynaqda hərəkətin tam itməsi xarakterdir.

İlk tibbi yardım – çıxıq olan ətrafa hərəkətsiz vəziyyət verilir və xəstəxanaya hospitalizasiya olunur. Sınıqlar yumşaq toxumaların zədələnməsinin xarakterindən asılı olarq qapalı və açıq ola bilər. Qapalı sınıqlarda dərinin tamlığı pozulmur. Açıq sınıqlar dərinin tamlığının pozulması ilə müşayiət olunan sınıqlardır ki, belə sınıqlarda sınmış sümük gözlə görünür. Sınıqlar xarici təsir nəticəsində sümüklərin tamlığının tam pozulmasıdır. Daha çox ətraf sümüklərinin sınıqlarına rast gəlinir. Sınma yerinin xarakterindən asılı olaraq sınıqlar düzünə, çəp, köndələn, qəlpəvi və s. olur. Sınıqların olub olmamasını zədələnən şəxsin sözlərinə görə bilmək olar. Yəni travma faktı, zərbə dəyən nahiyədə zədələnən şəxsin xarakter sınıq xışıltısı hiss etməsi, güclü ağrı, ətrafın funksiyasının pozulması, sınıq nahiyəsində şişkinlik, sümük sınıqlarının yerini dəyişməsi nəticəsində ətrafın qısalması və əyilməsi nəzərə çarpır. İlk yardımın düzgün aparılmasının sonrakı fəsadlaşmanın qarşısının

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

alınmasında böyük əhəmiyyəti var. Yardımın düzgün göstərilməməsi sınmış sümüyün hissələrinin yerini dəyişməsinə və bunun nəticəsində yumşaq toxumaların zədələnməsinə, qanaxmaya, şiddətli ağrılara və bunun nəticəsində şokun yaranmasına səbəb ola bilər.

Sınıqlar zamanı ilk tibbi yardımın əsas şərti sınmış nahiyəyə şina qoyulmasıdır. Şinanın köməyi ilə ətrafa hərəkətsiz vəziyyət verilir. Şina kimi istənilən düz səthli bərk əşyalardan istifadə etmək olar. Əks halda, sınmış sümük sınıqları yerlərini dəyişə bilər ki, bunun nəticəsində yumşaq toxumalar, qan damarları, sinirlər zədələnə bilər, bu da zədələnənin travmatik şoka düşməsi ilə nəticələnə bilər.

Kəllə-beyin zədələnmələri – mexaniki zədələnmələrin içində ən çox rast gəlinən zədələnmələr olub, bütün travmaların 30-35%-ni təşkil edir. Kəllə-beyin zədələnmələri açıq və qapalı olur. Qapalı kəllə-beyin travmaları kəllənin yumşaq toxumasının zədələnməsi ilə müşayiət olunmayan zədələnmələrə deyilir. Açıq kəllə-beyin zədələnmələri başın yumşaq toxumalarının yaralanması ilə müşayət olunur. Kəllə beyin zədələnmələri aşağıdakı növlərə bölünür: beyin silkələnməsi, beyinin əzilməsi (yüngül, orta və ağır dərəcəli), beyin sıxılması (beyinin əzilməsi və ya beyin əzilməsi olmadan). Beyin silkələnməsi dedikdə, beynin funksional zədələnməsi nəzərdə tutulur ki, müəyyən vaxt, 2-6 həftə keçəndən sonra tam aradan qalxmalıdır. Beynin əzilməsi dedikdə, beyin parenxemasının və ya onun qişasının anatomik zədələnməsi ilə müşayiət beyin zədələnməsi hesab olunur. Zədələnmənin yerləşmə ocağının lokalizasiyasından və beyin fəaliyyətindən asılı olaraq beyin əzilməsi yüngül, orta və ağır formada olur. Beyin sıxılması – kəllə-beyin zədələnmələrinin ən ağır forması təcili aktiv tibbi yardım tələb edir. Beyin sıxılması əzilmə fonunda yarana bilər.

*Elm və Təhsilin Əsasları* XVIII Beynəlxalq Elmi Konfrans, 05 fevral 2026 / 80-84
*Fundamentals of Science and Education* XVIII International Scientific Conference, 05 february 2026 / 80-84
https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

Beyin sümük sınıqları, yad cisimlər, travmatik kəskin kəllədaxili hematomalarla sıxıla bilər.

Beyin silkələnməsi. Beyin silkələnməsi üçün zədələnmədən bir neçə dəqiqədən 1-2 saata qədər sonra şüurun itməsi xarakterikdir. Şüur bərpa olunandan sonra xəstə nə olduğunu və zədələnmədən əvvəlki hadisələri xatırlamır (retroqrad amneziya). Xəstə şiddətli baş ağrılarından şikayətlənir. Ağrılar səs-küy olduqda daha da güclənir. Zədələnmənin birinci saatlarından və ya günlərindən sonra nistaqm (gözlərin şaquli və üfiqi istiqamətdə hərəkəti) ola bilər. Göz bəbəklərinin işığa reaksiyasının azalması aşkar oluna bilər. Normada gözə işıq düşdükdə göz bəbəyi yığılır. Xəstədə nəbzin tezləşməsi, bəzi hallarda azalması müşahidə olunur. Vegetativ reaksiyalar, həyəcanlanma və tər ifrazının artması olur.

Beyin əzilməsi. Beyin əzilməsi üçün beyin silkələnməsinə nisbətən daha ağır əlamətlər xarakterikdir. Xəstənin ümumi vəziyyəti orta ağırlıqlı və ağır ola bilər. Orta ağırlıqlı və ağır dərəcəli beyin əzilmələri zamanı şüurun itməsi bir neçə saatdan bir neçə günə qədər davam edə bilər. Hətta xəstə dərin komaya düşə bilər. Xəstədə beyin ödemi aşkar olur. Bir qayda olaraq, beyin əzilməsi beyin qişasının altına qansızma ilə müşayət olunur. Sol beyin yarımkürəsinin zədələnməsi zamanı sağ tərəfli iflic, üz sinirinin iflici, nitq mərkəzinin zədələnməsi zamanı müxtəlif şəkilli afaziyalar yaranır.

1-ci motor – zədələnən danışa bilmir, amma danışanı başa düşür.

2-ci sensor – xəstə bir-biri ilə mənaca əlaqəsi olmayan ayrı-ayrı cümlə və sözləri tələffüz edir. Lakin ona müraciət olunan mətni başa düşmür.

3-cü mnestik – xəstə elementar sözləri başa düşür, onlara cavab verir, lakin bəzi əşyaların adlarını xatırlamır. Beyin əzilməsi zamanı göz bəbəkləri zədələnən tərəfə əyilir, işıq-

https://doi.org/10.36719/2789-6919/XVIII/BK/ET/2026

danqorxma, gözə işıq düşəndə gözdən yaş axması və ağrı müşahidə olunur. Baş beynin sıxılması.Travmatik kəllədaxili qansızma müəyyən sahəyə yığılaraq hematoma əmələ gətirir. Hemato-manın bir neçə növü aid edilir: 1.Epidural hematoma – qan beyin qişası ilə kəllə sümüklərinin arasına yığılan zaman; 2.Subdural hematoma – qan beynin altına yığıldıqda; 3.Qan beyin daxilində yığıldıqda.

Bir qayda olaraq, subdural və beyindaxili hematomalar beyin zədələnməsi ilə müşahidə olunur. Epidural hematoma beyin əzilməsi olmayan hallarda yarana bilir. Hematomanın yaranması kəllə-beyin travmalarının qorxulu kəskinləşməsidir. Bu zaman beyin sıxılması çox tez – bir neçə saat ərzində inkişaf edir. Beynin ödemi inkişaf edir və arzuolunmaz nəticələr yaranır. Beyin sıxılmasının əlamətləri – kəllədaxili hemato-manın klassik əlamətləri ən çox epidural hematoma zamanı müəyyən olunur. Travma alandan dərhal sonra xəstə şüurunu müxtəlif vaxta qədər bir neçə dəqiqədən bir neçə saata qədər itirir. Sonra şüur bərpa olunur. Xəstədə baş ağrıları, qusma olur, hərəkətləri məntiqsiz olur, mənasız narahatlıq keçirir, vəziyyətin ağırlığını qiymətləndirmir. Bir neçə dəqiqədən və ya saatdan sonra (bəzən hətta 14-20 sutkadan və daha çox) xəstə yenidən şüurunu itirir. İkinci şüur itirmədən sonra beynin sıxılması əlamətləri və beynin ödemi yaranır. Nəbz ilk dəqiqələrdə və saatlarda təkbir, bəzən dəqiqədə 40 vurğu olur. Hematomanın əks istiqamətində ətraflarda iflic, hematoma geniş olduqda hər iki aşağı və yuxarı ətrafların iflici əmələ gəlir. Beyin sıxılmasının başlanğıc dövründə hematoma tərəfdə göz bəbəyinin genişlənməsi və onun işığa reaksiyasının itməsi müşahidə olunur. Dekompensasiya prosesində hər iki göz bəbəyi genişlənir. Bradikardiya taxikardiya ilə əvəz olunur, tənəffüs pozulur, komanın dərinliyi artır. Xəstə vaxt itirmədən hospitalizasiya olunmalıdır.

# İÇİNDƏKİLƏR
# CONTENTS

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES

**Sevinc Sadıqova**
Azərbaycan dilinin yazı sistemində istifadə olunan əlifbalar.... 8
**İsmayıl Mürsəlov**
Muğam-xanəndəlik sənətinin inkişaf mərhələsi...................... 12
**Elnurə Səfərova, Sabiyə Cəbrayılzadə**
STEAM təhsili ilə XXI əsr əmək bazarına hazırlıq və biololoji rəqəmsal savadlılıq........................................................ 15
**İsmət Həsənov**
Zəngəzur Dəhlizi: Naxçıvanın blokadadan çıxışı və regional inkişaf perspektivləri................................................... 18
**Qönçə Rəhimova**
Məktəb təliminə hazırlıq prosesində metodik işlərin təşkili.... 25
**Sənubər Həmidli**
Dini-mifoloji leksikanın dilin lüğət tərkibindəki rolu və inkişafı......................................................................... 30
**Qısxanım Allahverdiyeva**
Qərbi Azərbaycanın Meğri şivələrində fitonimlərin leksik-semantik xüsusiyyətləri...............................................................34
**Əsmər Tahirli**
Kamançanı Avropa musiqi alətlərindən (skripka) fərqləndirən diapazonu ............................................................ 37
**Shabnam Huseynli**
The Impact of Modern Teaching Methods on the Formation of Knowledge and Skills........................................................ 40

**Huma Hümeyra Mikayılov**
Avrupa ülkelerinde obeziteye etki eden faktörlerin veri madenciliği ve doğal dil işleme yaklaşımıyla hibrit analizi .... 44
**Aysel Məmmədli**
Məktəbəqədər yaşlı uşaqlarda dialoq qurma vərdişlərinin formalaşdırılması.......................................................... 52
**Qönçə Əliyeva**
Rəqəmsal əks-əlaqə və adaptiv öyrənmə: təhsildə yeni yanaşmalar........................................................................ 56
**Ху Цзяи**
Формы и методы работы социальных институтов общества (семья и средняя школа) с подростками негативного направления субкультуры................................ 59
**Aygül Məmmədli**
Ali təhsildə qiymətləndirmə ilə bağlı psixoloji problemlər: səbəblər və həll yolları ............................................................ 62
**Aytən Mustafayeva**
Musiqili-səhnə dramlarında görkəmli şəxsiyyətlərin obrazları............................................................ 65
**Нурлана Кулиева**
Внедрение принципов гуманизма в современную образовательную практику.................................................. 71
**Nigar İsmayıllı**
F.Şopen və Polşa musiqi folkloru ............................................ 74
**Nabat Abdullayeva**
Azərbaycan toponimlərinin dil mənsuliyyəti ........................... 77

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Həsən Əliyev**
Qapalı zədələnmələr və bu hallarda ilk tibbi yardım............... 80

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: bek.tedqiqat@aem.az

**Editorial address**
AZ1073, Baku,
Matbuat Avenue, 529,
“Azerbaijan” Publishing House, 6th floor
Phone: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: bek.tedqiqat@aem.az

İmzalandı: 28.01.2026
Onlayn çap: 05.02.2026
Kağız formatı: 60x84, 1/16
H/n həcmi: 10, 75 ç.v.
Sifariş: 135

aem.az saytında çap edilmişdir.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru

Signed: 28.01.2026
Online publication: 05.02.2026
Format: 60/84, 1/16
Stock issuance: 10, 75 p.s.
Order: 135

It has been published on aem.az
Address: Baku city, Matbuat Avenue, 529,
“Azerbaijan” Publishing House, 6th floor
Phone: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru